AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
3 APREL 2019-cu il ÇƏRŞƏNBƏ № 70 (6397) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olub







**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olub.**

AZƏRTAC xəbər verir ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənov, müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov və Xüsusi Təyinatlı Qüvvələrin komandanı, general-mayor Hikmət Mirzəyev Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Dövlətimizin başçısı əvvəlcə burada ulu öndər Heydər Əliyevin büstünün önünə gül dəstəsi qoyaraq xatirəsini dərin ehtiramla yad etdi.

Müdafiə naziri Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə hərbi hissədə aparılan yenidənqurma işləri barədə məlumat verdi.

Bildirildi ki, bu hərbi hissənin ərazisində qərargah binası, yeməkxana, əsgər yataqxanası yenidən qurulub, müasir təlim mərkəzləri yaradılıb. Hərbi hissənin ərazisində, eyni zamanda, burada xidmət edən ailəli hərbi qulluqçular üçün yeni yaşayış binaları, subay hərbçilər üçün isə müasir tələblərə cavab verən yataqxanalar inşa olunub. Dövlətimizin başçısına məlumat verildi ki, burada yeni binaların da tikintisi nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev hərbi hissənin xüsusi hazırlıq təlim meydanında xüsusi təyinatlıların döyüş hazırlığını izlədi.

Son illərdə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti sayəsində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının, silah-sursat arsenalının müasirləşdirilməsi istiqamətində çox mühüm və tarixi işlər görülüb. Şübhəsiz ki, bütün bu uğurların əldə edilməsində, Silahlı Qüvvələrimizin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində Azərbaycanın iqtisadi inkişafı vacib rol oynayır. Təbii ki, güclü ordunun yaradılması həm də güclü hərbi-sənaye kompleksinin mövcudluğu ilə şərtlənir. Prezident İlham Əliyevin rəhbərliyi ilə 2005-ci ildə ölkədə müdafiə sənayesinin əsasının qoyulması və bu sahədə istehsal yönümlü müəssisələrin fəaliyyətə başlaması Azərbaycan Ordusunun maddi-texniki bazasını daha da möhkəmləndirib. Dövlətimizin başçısının diqqəti nəticəsində yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar açıb. Təsadüfi deyil ki, indi ölkəmizin silah-sursatları bir çox parametrlərinə görə dünyada ilk yerlərdən birini tutur.

Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. 2003-cü ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün milli ordumuzun dünyanın ən qüdrətli ordularının sırasına daxil olmasına imkan yaradıb. Görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır.

**(davamı 2-ci səhifədə)**

## S.Ç.Hacıyevin Naxçıvan Muxtar Respublikasının Culfa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Siyam Çərkəz oğlu Hacıyev Naxçıvan Muxtar Respublikasının Culfa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 2 aprel 2019-cu il.**

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

Prezident İlham Əliyev və Prezident Vladimir Putin ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə martın 29-da Vyanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında keçirilmiş ilk rəsmi görüşün nəticələri və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesini müzakirə ediblər.

Prezidentlər ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar prosesinin fəallaşdırılmasının əhəmiyyətini vurğulayıblar.

Söhbət zamanı Azərbaycan və Rusiya arasında əməkdaşlığın müxtəlif sahələrdə bundan sonra da müvəffəqiyyətlə inkişafına əminlik ifadə olunub.

## YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirakla əlaqədar Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, YUNESKO-nun ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirak etmək üçün Azərbaycan Respublikasına gələn, YUNESKO-nun rəsmi dəvət məktubunu və həmin təşkilatın müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiqləyən sənədi təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2019-cu il iyunun 20-dən iyulun 10-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

*2.1.* YUNESKO-nun ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirakla əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən təsdiq edilmiş ölkələrin siyahısı üzrə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə YUNESKO-ya və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

*2.2.* YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirakla əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirakla əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 2 aprel 2019-cu il.**

# Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olub









**(əvvəli 1-ci səhifədə)**

Bu faktı beynəlxalq hərbi tədqiqat mərkəzləri də təsdiqləyir. Şübhəsiz ki, Azərbaycan bu uğura hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması sayəsində nail olub.

İndiyədək ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub. Ordumuzun gücünü son illərdə keçirilən hərbi paradlarda nümayiş etdirilən canlı qüvvə və hərbi texnikadan da görmək olur. Bu hərbi texnika ilə Azərbaycan Ordusu Ali Baş Komandanın əmrinə əsasən istənilən an düşmənə sarsıdıcı zərbə vuraraq, torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır. Bunu 2016-cı ildə cəbhədə baş verən hadisələr də göstərdi. Azərbaycan qoşunlarının mövqelərini dağıdıcı silahlardan, ağır artilleriyadan atəşə tutan düşmən layiqli cavabını aldı. Bu döyüşlər Azərbaycan Ordusunda yüksək mənəvi-psixoloji hazırlığın olduğunu üzə çıxardı. Aprel döyüşlərinin ən mühüm nəticəsi həm də ondan ibarət oldu ki, Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı. Mətin ordumuz 1992-ci ildən erməni silahlı birləşmələrinin işğal etdiyi Şərur rayonunun Günnüt kəndini də qəhrəmanlıqla azad etdi. Əlahiddə Ümumqoşun Ordusunun əks-həmləsi nəticəsində Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya dağı və Mehridağ işğaldan azad olundu, ümumilikdə 11 min hektara yaxın ərazi nəzarət altına alındı. Bütün bu uğurlar isə Azərbaycan Ordusunun qüdrətini göstərir. Çünki ölkəmizin güvənc yeri, qürur, ləyaqət rəmzi və özünütəsdiq imkanı olan Azərbaycan Ordusu xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir. Xalqımızın Silahlı Qüvvələrə olan inamı isə ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında ordunun şəxsi heyətinə böyük etimad yaradır.

Sonra Prezident İlham Əliyev hərbi qulluqçularla görüşdü.

Ali Baş Komandan görüşdə çıxış etdi.

## Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışı

–Əziz zabitlər, mən sizi ürəkdən salamlayıram.

Bu gün hərbi hissə ilə tanışlıq mənə çox xoş təəssürat bağışladı. Son illərdə hərbi hissə əsaslı şəkildə yenidən quruldu, təlim prosesi üçün bütün lazımi şərait yaradıldı. Bu, bir daha onu göstərir ki, bu gün Azərbaycan Ordusu uğurla inkişaf edir, ordu quruculuğu prosesi sürətlə gedir, bizim hərbi hissələrimiz yenidən qurulur, yenidən tikilir, ordumuz ən müasir texnika ilə təchiz edilir. Bu da təbiidir, çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıb. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır.

Aprel döyüşlərindən 3 il keçir. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Döyüşlər zamanı itkilərimiz də olub, Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı hərbçilərimizin müalicəsi, bərpası üçün dövlət əlindən gələni əsirgəməyib və yaralanmış bütün hərbçilər xoşbəxtlikdən normal həyata qayıtdılar. Onların müalicəsi, bərpası, aktiv həyata qayıtmaları üçün bütün lazımi işlər görülmüşdür.

Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir. Yaxşı bilirsiniz ki, döyüşlərə qədər Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdən bizim yaşayış məntəqələrini, hərbi mövqelərimizi daim atəşə tuturdu. Ermənistanın təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusu çox uğurlu əməliyyat keçirmiş və vaxtilə işğal edilmiş Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir. Minlərlə hektar torpaq işğalçılardan azad edildi, on minlərlə hektar ərazi nəzarətimizə keçdi. Vaxtilə işğal edilmiş torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Döyüşlər zamanı hərbçilərimiz peşəkarlıq, qəhrəmanlıq göstərmişlər. Bir daha göstərmişlər ki, Azərbaycan əsgəri, zabiti həm



peşəkardır, həm Vətənə bağlıdır, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır. Aprel döyüşləri hərbi cəhətdən çox uğurlu əməliyyat idi. Çünki əlverişsiz mövqelərdən bizim hərbçilərimiz çox önəmli strateji yüksəklikləri işğalçılardan azad etmişlər. Eyni zamanda, bu döyüşlərin mənəvi-psixoloji baxımdan da böyük əhəmiyyəti vardır. Çünki uzun illər ərzində Ermənistan təbliğatı belə bir mif yaradırdı ki, onlar hərbi cəhətdən bizdən üstündür. Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər. Ermənistanın yaratdığı mif tamamilə darmadağın edildi.

Bizim mülki vətəndaşlarımız da döyüşlər zamanı qəhrəmanlıq göstərmişlər. Bir neçə mülki şəxs Ermənistanın təxribatı nəticəsində həlak olmuşdur, yüzlərlə ev sıradan çıxmışdır, yandırılmışdır. Biz bütün bu evləri qısa müddət ərzində bərpa etdik. Döyüşlərdən sonra getdiyim həmin o təmas xəttinə yaxın yerləşən kəndlərdə vətəndaşlarla görüş əsnasında gördüm ki, bu vətəndaşlarda nə qədər milli ruh var, bunlar nə qədər qorxmaz insanlardır, atəş altında qalaraq öz doğma evlərini, kəndlərini tərk etməmişlər.

Döyüşlər nəticəsində Cocuq Mərcanlı kəndinə yeni həyat verildi. Cocuq Mərcanlı qısa müddət ərzində yenidən quruldu, 150 fərdi ev, məktəb, uşaq bağçası, tibb məntəqəsi, Şuşa məscidinin bənzəri olan məscid tikildi, yeni iş yerləri yaradılır. Yəni, Cocuq Mərcanlıya həyat qayıdıb. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq. Bu, bir daha onu göstərir ki, hər bir Azərbaycan vətəndaşı bir arzu ilə yaşayır - bizim işğal altındakı torpaqlarımız tezliklə azad olunsun və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etsin.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində bizim torpaqlarımız işğal altına düşmüşdür. Bunun səbəbi də odur ki, o vaxt hakimiyyətdə olan qüvvələr öz yarıtmaz fəaliyyəti ilə imkan verdilər ki, Ermənistan torpaqlarımızı zəbt etsin. AXC-Müsavat cütlüyünün xəyanətkar fəaliyyəti nəticəsində işğal edilmiş torpaqlarda Ermənistan silahlı qüvvələri möhkəmləndi, Ermənistanla Dağlıq Qarabağ arasında canlı bağlantı yaradıldı və düşmənə imkan verdi ki, öz işğalçılıq siyasətini davam etdirsin. Ancaq ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra vəziyyətdə dəyişiklik edildi, uğurlu Horadiz əməliyyatı aparıldı. Horadiz əməliyyatı nəticəsində 20-dən çox yaşayış məntəqəsi işğalçılardan azad edildi. Bu gün Horadiz şəhəri və həmin o kəndlər çiçəklənir, canlanır, orada ən yüksək səviyyədə işlər görülür.

Ordu quruculuğu prosesinə start verildi. Bu gün ordu quruculuğu baxımından Azərbaycan dünyanın güclü ölkələrindəndir. Qeyd etdiyim kimi, sonuncu reytinqə əsasən Azərbaycan Ordusu dünya miqyasında öz potensialına görə 52-ci yerdədir. Ötən il keçirilmiş iki hərbi parad bizim hərbi qüdrətimizi göstərdi. Ordumuz üçün ən müasir silahlar, texnikalar alınır, ordumuzun döyüş qabiliyyəti artır. Aprel döyüşləri bunun bariz nümunəsidir. Ordumuz üçün nə lazımdırsa, biz onu edirik və edəcəyik. Ötən il uğurlu Naxçıvan əməliyyatı keçirilmişdir. Bu əməliyyat nəticəsində biz strateji yüksəkliklərə sahib olmuşuq. Bu yüksəkliklər imkan verir ki, biz çox böyük əraziyə nəzarət edək. Uğurlu Naxçıvan əməliyyatı bir daha göstərdi ki, ordumuz peşəkardır, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir.

Bütün bunlar reallıqdır. Bu gün hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Azərbaycan Ordusu ilə fəxr edə bilər və biz əsgərlərimizlə, zabitlərimizlə fəxr edirik. Azərbaycan Ordusu dövlətimizin ərazi bütövlüyünün qorunması işində rol oynayan əsas amildir.

Hərbçilərin məişət problemləri həll olunur. Buna da böyük diqqət göstərilir. Keçən ilin sonunda 300-dən çox hərbçiyə yeni mənzillər verildi. Bu günə qədər yüzlərlə hərbçi dövlət tərəfindən mənzillərlə təmin edilib. Bu proses davam etdirilir. Eyni zamanda, hərbi hissələrin yenidən qurulması prosesi geniş vüsət almışdır. Son illərdə bir çox hərbi hissələrin şəhərciklərinin açılışında olmuşam. Hər yerdə səviyyə yüksəkdir, şərait çox gözəldir, o cümlədən bu hərbi hissədə. Burada mənə əvvəlki illərdə olan vəziyyəti əks etdirən fotoşəkillər təqdim olundu. Əlbəttə ki, vəziyyət çox ağır idi. Ancaq mənim xüsusi tapşırığım əsasında hərbi hissə qısa müddət ərzində yenidən quruldu, burada yaxşı şərait yaradıldı. Həm burada çalışanlar, həm yataqxanalarda qalanlar üçün gözəl şərait yaradıldı. Onu da bildirməliyəm ki, bizim hərbi hissələrimizdə mülki işlərdə mülki vətəndaşlar çalışır, bu da yenilikdir. Beləliklə, biz hərbçiləri, onların fəaliyyətini əsas vəzifə borcuna yönəltmişik, eyni zamanda, 20 minə yaxın mülki şəxs işlə təmin edilmişdir.

O ki qaldı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə, burada bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır. Əsrlər boyu xalqımız bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bu gün bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bütün mötəbər beynəlxalq təşkilatlar müvafiq qərar və qətnamələr qəbul etmişlər. Bu, tarixi və hüquqi əsasdır. Heç bir ölkə qondarma “Dağlıq Qarabağ respublikası”nı tanımayıb, əminəm ki, tanımayacaqdır.

Ona görə danışıqların davam etdirilməsinin məqsədi işğal edilmiş torpaqların azad olunmasıdır. Siz bilirsiniz ki, Ermənistanın yeni rəhbərliyi danışıqların formatını dəyişdirmək istəmişdir. Verilən bəzi bəyanatlar da ictimaiyyət üçün bəllidir. Ancaq Azərbaycanın birmənalı mövqeyi bunu mümkün etməmişdir. Münaqişə Ermənistan ilə Azərbaycan arasındadır. Bizim torpaqlarımızı Ermənistan işğal edibdir. İşğal edilmiş torpaqlarda qarşı tərəfdə hərbçilərin 80 faizi Ermənistan vətəndaşlarıdır. Ona görə danışıqlar prosesi də iki ölkə arasında aparılmalıdır və aparılır. Son Vyana görüşü, o cümlədən ona görə önəmli idi ki, bu mövcud formatı bir daha təsdiqlədi. Həm xarici işlər nazirləri arasında aparılan danışıqlar, həm də rəhbərlik arasında keçirilmiş görüş bir daha onu göstərir ki, bu, Ermənistan-Azərbaycan münaqişəsidir. Biz hər dəfə bu münaqişə ilə bağlı sözümüzü deyəndə bu münaqişəni belə də adlandırırıq: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi.

Haqq-ədalət, tarixi həqiqət bizim tərəfimizdədir. İqtisadi güc də, hərbi güc də bizim tərəfimizdədir. Son illərdə görülmüş işlər, hərbi sahədə aparılan islahatlar, hərbi gücümüzün artırılması, həm siyasi meydanlarda, həm də döyüş meydanlarında qələbələr bizi daha da ruhlandırır, daha da gücləndirir.

Siz - burada xidmət göstərən hərbçilər öz vəzifə borcunuzu çox yaxşı bilirsiniz, yaxşı başa düşürsünüz. Siz ən ağır döyüşlərdə iştirak etmisiniz, qəhrəmanlıq, şücaət göstərmisiniz. Dövlət sizin fəaliyyətinizi yüksək qiymətləndirir. Mən Sizi əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm, sizə və Ordumuza yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

* * *

**Müdafiə naziri Zakir Həsənov şəxsi heyət adından ordu quruculuğuna göstərdiyi diqqətə görə Ali Baş Komandana minnətdarlığını bildirərək dedi:**

- Cənab Ali Baş Komandan.

Azərbaycan Ordusunun bütün şəxsi heyəti adından Sizə dərin minnətdarlığımızı bildiririk. Orduda keçirdiyiniz islahatlar ordunun döyüş qabiliyyətinin artırılmasına, nizam-intizamın güclənməsinə və şəxsi heyətin sosial bazasının yüksək səviyyədə təşkil olunmasına yönəlib. Bu gün Azərbaycan Ordusunun bütün uğurları yalnız bu islahatlar nəticəsində mümkün olmuşdur.

Bu gün şəxsi heyət Sizin orduya göstərdiyiniz diqqət və qayğını gündəlik həyatında hiss edir və Sizin etimadınızı doğrultmaq üçün hər an hər bir əmrinizi yerinə yetirməyə hazırdır və qadirdir.

Diqqətinizə görə çox sağ olun.

* * *

Sonra Prezident İlham Əliyevə xüsusi təyinatlıların geyim formaları, xüsusi təchizatı və ərzaq normalarının nümunələri təqdim olundu. Yüksək döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı və vətənpərvərliyi ilə seçilən Azərbaycan ordusunun hərbi qulluqçularının sosial məsələlərinin həlli, onların xidmətkeçmə və hazırlıq səviyyələrinin daha da yüksəldilməsi istiqamətində də son illərdə dövlətimiz tərəfindən mühüm addımlar atılıb.

**AZƏRTAC**







*Baş nazir Novruz MƏMMƏDOV:*

# Azərbaycan-Qazaxıstan əlaqələrinin daha da inkişaf etdirilməsi üçün yaxşı potensial var

**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov aprelin 2-də Qazaxıstan Respublikasının rəqəmsal inkişaf, müdafiə və aerokosmik sənaye naziri Askar Jumaqaliyev ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Qazaxıstan münasibətlərindən danışan Novruz Məmmədov dost və qardaş ölkələrimiz, xalqlarımız arasında tarixən çox yaxşı əlaqələrin mövcud olduğunu bildirib.

Təməli ulu öndər Heydər Əliyev və Qazaxıstan xalqının lideri Nursultan Nazarbayev tərəfindən qoyulan Azərbaycan-Qazaxıstan əlaqələrinin yüksək səviyyədə olduğunu qeyd edən Baş nazir ötən ilin noyabrında Qazaxıstanın paytaxtı Astanada MDB Hökumət Başçıları Şurasının iclasında iştirakını, keçirdiyi görüşləri məmnunluqla xatırladıb. Baş nazir bildirib ki, qarşılıqlı səfərlər, aparılan danışıqlar, imzalanan sənədlər bu gün ölkələrimiz arasında çox möhkəm əlaqələrin mövcud olduğunu sübut edir. "Hesab edirəm ki, dost və qardaş ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı potensial var və sizin səfəriniz əməkdaşlığımızın genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır",- deyə Baş nazir Novruz Məmmədov vurğulayıb.

Nazir Askar Jumaqaliyev bildirib ki, müstəqilliklərini bərpa etdikdən sonra ölkələrimiz arasındakı əməkdaşlıq daha da möhkəmləndirilib və bu gün Azərbaycan-Qazaxıstan əlaqələri müxtəlif sahələrdə uğurla inkişaf etdirilir.

Görüşdə Azərbaycanın və Qazaxıstanın Çindən Avropaya qədər uzanan beynəlxalq nəqliyyat dəhlizinin imkanlarından maksimum dərəcədə faydalanmaqda maraqlı olduğu vurğulandı. Həmçinin Xəzər dənizində birgə fəaliyyətə, nəqliyyat, rabitə, müdafiə sənayesi, kosmik sənaye, İKT, o cümlədən rəqəmsallaşma sahələrində əməkdaşlığa və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

AZƏRTAC

## YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının keçirilməsinə dair Tədbirlər Planı təsdiqlənib

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə Bakıda YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilib.**

AZƏRTAC xəbər verir ki, sərəncamda Tədbirlər Planında nəzərdə tutulan işlərin yerinə yetirilməsi üçün müvafiq qurumlara tapşırıqlar verilib.

Qeyd edək ki, YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası 30 iyun-10 iyul tarixlərində keçiriləcək.

AZƏRTAC

## Yanğından zərər çəkmiş sahibkarlar ticarət mərkəzlərində müvafiq yerlə təmin olunur

**Xəbər verdiyimiz kimi, İqtisadiyyat Nazirliyi tərəfindən ticarət mərkəzləri ilə aparılmış danışıqların nəticəsində əldə olunmuş razılaşmaya əsasən, Bakının Nizami rayonunda yerləşən ticarət mərkəzində baş vermiş yanğında zərər çəkən sahibkarlara 8 ticarət mərkəzi təklif edilib.**

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, 20-dək sahibkar 5 ay icarə haqqı ödənilməmək şərti ilə "Aygün" və "Sədərək" ticarət mərkəzlərində, Dərnəgül şosesində yerləşən "Eurohome" tikinti bazarında ticarət obyektləri ilə təmin olunub.

Sahibkarların ticarət mərkəzlərində yerləşdirilməsi prosesi davam etdirilir.

AZƏRTAC

# Fövqəladə Hallar Nazirliyində kollegiya iclası keçirilib

**Aprelin 2-də Fövqəladə Hallar Nazirliyinin (FHN) Aparatında fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə geniş kollegiya iclası keçirilib.**



FHN-dən AZƏRTAC-a bildiriblər ki, kollegiya iclasında nazir müavinləri, nazirliyin Aparatının struktur bölmələrinin və qurumlarının rəhbərləri iştirak ediblər.

İclasın gündəliyində duran birinci məsələ - fevralın 5-də və 6-da Şamaxı, Ağsu və İsmayıllı rayonlarının ərazisində baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə əlaqədar görülən işlər barədə danışan nazir K.Heydərov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hər zaman olduğu kimi, bu dəfə də hadisəyə çevik reaksiya göstərməsi, zəlzələnin nəticələrinin operativ aradan qaldırılması istiqamətində mühüm tapşırıqlar verməsi, dərhal zəlzələ bölgəsinə gedərək çətin vəziyyətə düşmüş insanlara dayaq nümayiş etdirməsi onun hər bir azərbaycanlının Prezidenti olduğunu bir daha göstərdi. Zəlzələnin ziyan vurduğu evlərin, sosial və infrastruktur obyektlərinin tikintisi, bərpa-gücləndirmə və təmir işləri ilə əlaqədar Prezident İlham Əliyevin imzaladığı sərəncamlar bu baxımdan böyük humanist addım kimi xüsusi vurğulanıb. Nazir, həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə zəlzələ zonasında böyük işlərin görüldüyünü də diqqətə çatdırıb.

İclasda çıxış edən nazirliyin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəisi Cəbrayıl Xanlarov Şamaxı, Ağsu və İsmayıllı rayonlarının ərazisində baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı bu günədək görülən işlərdən danışıb. Qeyd edib ki, hadisədən dərhal sonra zəlzələdən zərər görmüş evlərin sakinləri sığınacaqlarda və yaxın qohumlarının evlərində yerləşdirilibler. Hazırda zəlzələ zonasında təbii fəlakətin nəticələrinin aradan qaldırılması istiqamətində bütün zəruri işlərin görüldüyünü deyən C.Xanlarov komissiyaların işlərini operativ şəkildə davam etdirdiyini vurğulayıb. Qeyd edib ki, aprelin 2-dək 8810 müraciət qeydə alınıb. Agentliyin mütəxəssisləri tərəfindən 8352 fərdi yaşayış evinə baxış keçirilib.

Diqqətə çatdırılıb ki, hazırda Şamaxı rayonu ərazisində 267 qəzalı, 1227 evin bərpaya ehtiyacı olması, İsmayıllı rayonu ərazisində 101 qəzalı, 290 evin bərpaya ehtiyacı olması və Ağsu rayonu ərazisində 215 qəzalı, 351 evin bərpaya ehtiyacı olması müəyyən edilib. Aprelin 2-nə olan məlumata əsasən, Şamaxı rayonu ərazisində 47 ev sökülüb, 40 evin tikintisinə başlanılıb. İsmayıllı rayonunda 10 ev sökülüb, 10 evin tikintisinə başlanılıb. Ağsu rayonu ərazisində isə 22 ev sökülüb, 6 evin tikintisinə başlanılıb. Həmin rayonlar üzrə ümumilikdə 79 ev sökülüb, 56 evin tikintisinə başlanılıb.

Bundan başqa, Şamaxı şəhərində ikigirişli, dördmərtəbəli, 44 mənzilli yaşayış binasının tikintisi üçün agentliyin "Azərdövlətlayihə" İnstitutu tərəfindən layihə-smeta sənədləri hazırlanıb. Hazırda yaşayış binasının tikintisi davam etdirilir. Habelə Şamaxı rayonunda bərpa işlərinin aparılması məqsədilə 235 evdə ölçü işləri aparılıb, 132 evin layihə-smeta sənədləri hazırlanır.

C.Xanlarov qeyd edib ki, baş vermiş təbii fəlakət nəticəsində hər üç rayonda ziyan çəkmiş sosial obyektlərə də komissiyalar tərəfindən baxış keçirilib. Keçirilmiş baxış nəticəsində Şamaxı rayonunda 2 qəzalı, 4 bərpaya ehtiyacı olan sosial obyekt, İsmayıllı rayonunda 3 qəzalı, 6 bərpaya ehtiyacı olan sosial obyekt, Ağsu rayonunda 4 qəzalı sosial obyekt müəyyən edilib.

C.Xanlarov söküntü-tikinti, habelə layihələndirmə işlərinin aparılmasına hava şəratinin yağmurlu keçməsinin və kommunikasiya xətlərinin köçürülməsi ilə bağlı qarşıya çıxan problemlərin mane olduğunu qeyd edib. Bildirib ki, bu problemlərin aradan qalxması sayəsində bir ay ərzində bütün qəzalı evlərə bağlı söküntü-tikinti işlərinə başlanılacaq və qarşıya qoyulmuş tapşırıqlar vaxtında və keyfiyyətlə icra ediləcək.

Nazir K.Heydərov zəlzələnin vurduğu ziyanın həcminin müəyyən edilməsi, o cümlədən yaşayış evləri və sosial obyektlərə komissiyalar tərəfindən baxışın, söküntü-tikinti işlərinin sürətləndirilməsi, tikinti işlərinin ən yüksək standartlara uyğun aparılması barədə tapşırıqlar verib.

Sonra FHN-in Dövlət Yanğın Nəzarəti Xidmətinin (DYNX) rəisi, daxili xidmət general-mayoru İsrayıl Əliyev kollegiya iclasının gündəliyində duran ikinci məsələ - martın 26-da Bakının Nizami rayonu ərazisindəki "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar məlumat verib. Həmin obyektdə yanğın təhlükəsizliyi qaydalarının pozulmasından danışan İ.Əliyev bildirib ki, DYNX-nin əməkdaşları yanğına qarşı mövcud vəziyyəti müəyyən etmək üçün 2018-ci ildə obyektdə videoçəkiliş aparıblar. Xidmət rəisi həmin videonun müşayiəti ilə izah edib ki, obyekt yanğına qarşı su hovuzu və avtomatik yanğınsöndürmə qurğusu ilə təmin olunmayıb. Obyektin elektrik təsərrüfatı Elektrik Qurğularının Quraşdırılması Qaydalarının tələblərinə cavab vermədən istismar olunub. Həmin obyektin təxliyə yolları müxtəlif əşyalarla tutulub və bununla da əraziyə sərbəst giriş-çıxış məhdudlaşdırılıb. Obyektdə malların yığılması zamanı yanğına qarşı ara məsafələrinə riayət olunmayıb. Ticarət mərkəzinin binası tüstü xaricetmə və normativ sənədlərin tələblərinə uyğun havalandırma sistemləri, yanğına qarşı su hovuzu ilə təmin edilməyib. Habelə obyektətrafı ərazi müxtəlif avtomobillərlə tutulub. Nəqliyyat vasitələrinin xüsusi ayrılmış yerlərdə saxlanılmaqla hadisə zamanı yanğınsöndürmə avtomobillərinin sərbəst yaxınlaşması mümkün olmayıb.

Qeyd edilib ki, Dövlət Yanğın Nəzarəti Xidməti qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində "Diqlas" ticarət mərkəzində yanğın təhlükəsizliyi qaydalarının pozulması və bu pozuntuların aradan qaldırılmasının zəruriliyi ilə bağlı ticarət mərkəzinin rəhbərliyi və digər aidiyyəti şəxslərə dəfələrlə rəsmi şəkildə xəbərdarlıq edib. Bütün müraciətlərə baxmayaraq, ticarət mərkəzində yanğın təhlükəsizliyi qaydaları ilə bağlı pozuntular aradan qaldırılmayıb. Ümumiyyətlə, obyektin istismarı Dövlət Yanğın Nəzarəti Xidməti və Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi ilə razılaşdırılmayıb. Ölkə ərazisində insanların kütləvi toplaşdıqları digər yerlərdə yanğın təhlükəsizliyi qaydalarının pozulması halları və bu pozuntuların aradan qaldırılmasına dair aidiyyəti üzrə məktublar ünvanlanıb.

FHN Dövlət Yanğından Mühafizə Xidmətinin rəisi, daxili xidmət general-mayoru Füzuli Əsədov "Diqlas" ticarət mərkəzində baş vermiş yanğının söndürülməsi ilə bağlı həyata keçirilmiş tədbirlər barədə ətraflı məruzə edib. O deyib ki, obyektdə yanğın təhlükəsizliyi qaydalarının kobud şəkildə pozulması, obyektin su hovuzu və daxili su kranlarının işlək vəziyyətdə olmaması, yanğın hidrantlarının və su hovuzlarının uzaq məsafədə yerləşməsi, yanğınsöndürmə işləri üçün uzaq məsafədən (800, 1000 metr) müxtəlif istiqamətlərdən suyun çəkilməsi, ərazidəki ticarət obyektlərinin sıx yerləşməsi və həmin obyektlərin yanğının sürətlə yayılmasına səbəb ola biləcək materiallarla üzlənməsi yanğının qarşısının vaxtında alınmasında böyük çətinliklər yaradıb. Buna baxmayaraq, görülmüş operativ və təxirəsalınmaz tədbirlər nəticəsində yanğının ətraf ərazilərə yayılmasının və daha böyük fəsadların qarşısı alınıb. Belə ki, "Diqlas" ticarət mərkəzinin zirzəmisinin mənfi 2-ci və 3-cü mərtəbələrində (zirzəmi) olan mallarla birlikdə 5000 kvadratmetr sahədə, yaxınlığında olan təsərrüfat malları bazarı 2 hektar ərazidə, meyvə-tərəvəz bazarı 2,5 hektar ərazidə və üçmərtəbəli "Lotos" ticarət mərkəzi yanğından mühafizə olunub.

İclasa yekun vuran nazir, general-polkovnik Kəmaləddin Heydərov "Diqlas" ticarət mərkəzindəki yanğınla bağlı yaradılmış istintaq-əməliyyat qrupuna bütün lazımi materialların verilməsinə dair aidiyyəti üzrə göstərişlər verib. Nazir, həmçinin ölkədə insanların kütləvi toplaşdıqları məkanlarda, o cümlədən ticarət və əyləncə obyektlərində yanğın təhlükəsizliyinin təmin edilməsi üçün aidiyyəti üzrə tədbirlərin görülməsinə dair DYNX-nin rəisi İsrayıl Əliyevə və DYMX-nin rəisi Füzuli Əsədova müvafiq tapşırıqlar verib.

AZƏRTAC

## Azərbaycanla Qazaxıstanın rabitə və yüksək texnologiyalar sahəsində əməkdaşlığı müzakirə edilib

**Azərbaycan ilə Qazaxıstan arasında rabitə və yüksək texnologiyalar sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.**



Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, ölkəmizdə səfərdə olan Qazaxıstanın rəqəmsal inkişaf, müdafiə və aerokosmik sənaye naziri Askar Jumaqaliyev ilə Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə arasında ikitərəfli görüş keçirilib. Görüş zamanı iki ölkə arasında rabitə və yüksək texnologiyalar sahəsində əməkdaşlığın cari vəziyyəti, gələcək inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Görüşdə Trans-Avrasiya Super İnformasiya Magistralı (TASİM) layihəsi, Azərbaycan və Qazaxıstanın qlobal bazarlarda rəqabətqabiliyyətli startap layihələri arasında sinerjinin yaradılması və birgə layihələrin icra olunması, tanışlıq səfərlərinin təşkili və digər qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə olunub.

AZƏRTAC

## Azərbaycan ilə Qazaxıstan arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub



**Aprelin 2-də müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev Qazaxıstanın rəqəmsal inkişaf, müdafiə və aerokosmik sənaye naziri Askar Jumaqaliyevin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Sənayesi Nazirliyindən (MSN) AZƏRTAC-a bildiriblər ki, Yəhya Musayev Azərbaycan ilə Qazaxıstan arasındakı ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayıb və nümayəndə heyətinə nazirliyin fəaliyyəti ilə bağlı məlumat verib.

Görüşdə Qazaxıstanın MSN-in müəssisələrində istehsal edilən müdafiə təyinatlı məmulatlara və xidmətlərə maraq göstərdiyi qeyd olunub. Tərəflər iki ölkə arasında müdafiə sənayesi üzrə əməkdaşlığın vacibliyini vurğulayıb, bu sahədə əməkdaşlığın istiqamətlərinin müəyyənləşdirilməsi və perspektivlərinə dair geniş fikir mübadiləsi aparıblar. Sonda müzakirə olunan məsələlərlə bağlı işçi qrupunun yaradılmasına dair razılıq əldə olunub.

Görüşdə Qazaxıstanın Azərbaycandakı hərbi attaşesi, polkovnik Kahir Tezekbayev iştirak edib.

Səfər çərçivəsində nümayəndə heyəti MSN-in elektron hesablayıcı maşınlar zavodunda hərbi təyinatlı məmulatların sərgisinə də baxıb.

AZƏRTAC

## Statistika Komitəsi BMT-nin Əhali Fondu ilə əməkdaşlığın prioritetlərini müzakirə edib

**Dövlət Statistika Komitəsi ilə BMT-nin Əhali Fondunun (UNFPA) gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.**



Komitədən AZƏRTAC-a bildirilib ki, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov aprelin 2-də BMT-nin Əhali Fondunun Türkiyədəki nümayəndəsi, Azərbaycan, Gürcüstan və Ermənistan üzrə ölkə direktoru Karl Kulessa ilə görüşüb.

Görüşdə Dövlət Statistika Komitəsi ilə UNFPA arasında gələcək əməkdaşlıq perspektivləri və oktyabrın 1-10-da Azərbaycanda keçiriləcək əhalinin siyahıyaalınmasına hazırlıq məsələləri müzakirə edilib.

Tahir Budaqov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafının dayanıqlı və sistemli xarakter daşıdığını, ölkə iqtisadiyyatının bütün sahələri kimi milli statistika sisteminin də inkişaf etdiyini və daim təkmilləşdirildiyini qeyd edib.

Komitə sədri oktyabrın 1-10-da ölkəmizdə keçiriləcək əhalinin siyahıyaalınmasına hazırlıq işləri barədə də ətraflı məlumat verib. Bildirib ki, ötən ilin oktyabrında Qəbələ rayonunda keçirilmiş sınaq siyahıyaalınması zamanı əldə edilən təcrübədən əsas siyahıyaalınmanın daha yüksək səviyyədə təşkili üçün istifadə olunacaq, hazırda isə Təqvim planında nəzərdə tutulmuş tədbirlər uğurla icra edilir.

K.Kulessa UNFPA-nın Azərbaycanın bir sıra dövlət qurumları, o cümlədən Dövlət Statistika Komitəsi ilə faydalı əməkdaşlıq etdiyini qeyd edib. O, Azərbaycanda keçiriləcək əhalinin növbəti siyahıyaalmasına hazırlıq işlərini də yüksək qiymətləndirib, hər cür dəstəyə hazır olduqlarını vurğulayıb.

Görüşdə Dövlət Statistika Komitəsi ilə UNFPA arasında birgə əməkdaşlığın prioritetləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

AZƏRTAC

*XİN:*

## Ermənistan rəhbərliyinin son bəyanatları Vyana görüşü və onun nəticəsində qəbul edilmiş birgə bəyanata uyğun gəlmir

**Ermənistan rəhbərliyinin son bəyanatları və hərəkətləri, o cümlədən işğalçı ölkənin müdafiə nazirinin "yeni ərazilər tutmaq üçün yeni müharibə" formulunu təqdim etməsi tamamilə qəbuledilməzdir. Hesab edirik ki, bu kimi addımlar iki ölkə rəhbərləri səviyyəsində baş tutmuş Vyana görüşü və onun nəticəsində qəbul edilmiş birgə bəyanata uyğun gəlmir.**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin şərhində yer alıb.

"Təkrar edirik ki, bu kimi təxribatlar uzun illər ərzində aparılan danışıqlar prosesini və ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətini ciddi sual altına qoyur. Vurğulamaq istərdik ki, belə təhlükəli ritorikanın mümkün mənfi nəticələrinə görə bütün məsuliyyət Ermənistan tərəfinin üzərindədir", - deyə şərhdə bildirilir.

AZƏRTAC

# XİN Kəlbəcərin işğalının və Aprel döyüşlərinin ildönümləri ilə əlaqədar bəyanat yayıb

**Xarici İşlər Nazirliyinin mətbuat xidməti Azərbaycanın Kəlbəcər rayonunun işğalının və 2016-cı ilin Aprel döyüşlərinin ildönümləri ilə bağlı bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir.**

1993-cü il aprelin 2-də Azərbaycanın Kəlbəcər rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin xaricində yerləşən Kəlbəcərin işğalı üçün hücum əməliyyatı əsasən Ermənistan ərazisindən həyata keçirilib və işğal zamanı Ermənistanın ağır artilleriyası, Mi-24 helikopterləri və hərbi təyyarələri istifadə edilib.

İşğal nəticəsində 60 minə qədər Kəlbəcər sakini etnik təmizləməyə məruz qalaraq öz doğma torpaqlarından didərgin salınıb, 511 dinc sakin öldürülüb, 321 nəfər əsir götürülüb və itkin düşüb. Hazırda sayı 70 mini ötən Kəlbəcər sakini Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün vəziyyətində yaşayır.

Erməni işğalı Kəlbəcərin qədim və zəngin maddi-mədəni irsini məhv edib, bölgədə yerləşən və Azərbaycanın qədim alban xristian irsinə aid olan monastırların orijinal arxitektura xüsusiyyətləri dəyişdirilərək erməniləşdirilib.

Kəlbəcərin təbii resursları və faydalı qazıntıları qanunsuz istismar olunur. Lixtenşteyndə qeydiyyatda olan və Ermənistanın Vallex Qrupunun tərkibinə daxil olan "Base Metals" şirkəti 2002-ci ildən etibarən Kəlbəcərin Heyvalı kəndi yaxınlığında Qızılbulaq mis-qızıl yatağını qanunsuz olaraq istismar edir. 2007-ci ildən etibarən "GeoPro-Mining" şirkətinə daxil olan "GPM Gold" şirkəti Kəlbəcər ərazisində Söyüdlü qızıl yatağını istismar edir. Peyk vasitəsilə çəkilmiş şəkillər yataqda işlərin genişləndirildiyindən xəbər verir.

Kəlbəcər ərazisindən keçən Vardenis-Ağdərə yolu Kəlbəcər rayonu daxil olmaqla, işğal olunmuş ərazilərdən təbii sərvətlərin Ermənistana və beynəlxalq bazarlara daşınmasına xidmət edir.

Bütün bunlarla yanaşı, Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu ərazisində qanunsuz məskunlaşdırma aparılır və demoqrafik tərkib dəyişdirilir.

BMT Təhlükəsizlik Şurası sədrinin 1993-cü il 6 aprel tarixli bəyanatının ardınca BMT TŞ Azərbaycanın Kəlbəcər rayonunun işğalı ilə əlaqədar 822 saylı qətnamə qəbul etdi. Qətnamədə BMT TŞ ərazi əldə edilməsi üçün gücdən istifadənin qəbuledilməzliyini vurğulayaraq, işğalçı qüvvələrin dərhal işğal olunmuş Kəlbəcər və digər rayonlardan çıxarılmasını tələb etdi. Bu qətnamənin qəbulundan sonra ATƏT-in Minsk qrupu Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması üçün "təcili tədbirlər haqqında vaxt cədvəli" hazırladı.

Ermənistan bu günədək BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin tələblərinə əməl etmir.

2016-cı il aprelin 2-də qoşunların təmas xəttində vəziyyətin gərginləşməsi və Ermənistan silahlı qüvvələrinin təmas xətti boyunca sıx yaşayan mülki əhalini ağır silahlardan atəşə tutması bir daha göstərdi ki, Ermənistanın Azərbaycan ərazilərinin işğalını davam etdirməsi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu regionda sülh və təhlükəsizlik üçün başlıca təhdiddir. Ermənistanın hücumlarına cavab olaraq, Azərbaycan Silahlı Qüvvələrinin əks-həmlə tədbirləri nəticəsində mülki Azərbaycan əhalisinin təhlükəsizliyi təmin edildi və strateji əhəmiyyət daşıyan Azərbaycan əraziləri işğaldan azad olundu.

Ermənistan dərk etməlidir ki, Kəlbəcər də daxil olmaqla, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı müvəqqəti xarakter daşıyır. Davamlı və uzunmüddətli sülhə nail olunmasının yeganə yolu Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz və tamamilə çıxarılması, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaları üçün ayrılmaz hüquqlarının təmin edilməsidir.

Ermənistan tərəfi əbəs yerə vaxt itirmək və öz xalqı və beynəlxalq ictimaiyyəti aldatmaq əvəzinə təcavüz və etnik təmizləmə siyasətinə son qoymalı, beynəlxalq öhdəliklərinə, habelə Azərbaycanın ərazilərinin işğaldan azad olunmasını tələb edən BMT qətnamələrinə və digər beynəlxalq təşkilatların qərarlarına əməl etməlidir.

**AZƏRTAC**

# Dövlət Komitəsində vətəndaşların qəbulu keçirilib

**Aprelin 2-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində vətəndaşların növbəti qəbulu keçirilib. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsinin mətbuat xidmətindən məlumat verilib.**



Komitə sədri Rövşən Rzayev vətəndaşların müraciətlərini ayrı-ayrılıqda dinləyib, onların hər birinin araşdırılması üçün müvafiq tapşırıqlar verib. Məcburi köçkünlərin müraciətləri, əsasən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, vahid aylıq müavinətlərin verilməsi, məşğulluq, status məsələləri, kommunal xidmətlər və digər sosial problemlərlə bağlı olub.

Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər kimi məcburi köçkünlərin problemlərinin həlli dövlət siyasətinin üstün istiqamətlərindəndir. Prezident İlham Əliyevin məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün verdiyi tapşırığa uyğun olaraq, Bakı şəhərində və bölgələrdə yeni mənzillərin tikintisi davam etdirilir. Dövlətimizin başçısı bu kateqoriyadan olan vətəndaşlarımızın maddi rifah halının yüksəldilməsini də daim diqqətdə saxlayır, onun verdiyi Sərəncama uyğun olaraq artıq bu aydan 500 minə yaxın məcburi köçkün vahid aylıq müavinətlərini 50 faiz artımla alacaq.

Məcburi köçkünlərlə bağlı məsələlərə daim xüsusi həssaslıqla yanaşan Birinci vitse-prezident xanım Mehriban Əliyevanın hələ də ən ağır vəziyyətdə yaşayan köçkün ailələrin yeni mənzillərə köçürülməsi barədə tapşırığı davamlı şəkildə icra olunur. Son illərdə yüzlərlə belə ailə zirzəmilərdən, yarımçıq və yararsız tikililərdən yeni mənzillərə köçürülüb.

Vətəndaşların qəbul zamanı qaldırdıqları məsələlər operativ şəkildə araşdırılacaq və qanunvericiliyə uyğun tədbirlər görüləcəkdir.

**AZƏRTAC**

# Dövlət Komitəsində Kəlbəcərin işğalının ildönümü anılıb

**Aprelin 2-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin 26-cı ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.**




Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə Komitənin sədri və əməkdaşları, Kəlbəcər rayonundan olan ziyalılar, Qarabağ müharibəsi veteranları, ictimai fəallar, həmçinin Aprel qazilərindən bir qrupu iştirak ediblər.

Əvvəlcə Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Dövlət Komitəsinin sədri Rövşən Rzayev Kəlbəcərin təcavüzkar Ermənistan tərəfindən işğalına imkan yaradan hərbi-siyasi səbəblər haqqında danışıb. O, həmin dövrdə Azərbaycana rəhbərlik edən şəxslərin naşı və səriştəsiz idarəçiliyi nəticəsində ölkədə bütün sahələrdə dərin böhran yarandığını qeyd edib. Hətta belə bir vəziyyətdə yerli vətənpərvərlərin öz doğma yurdlarını qəhrəmanlıqla müdafiə etmələrinə baxmayaraq, xaricdən dəstək alan ermənilər uzunmüddətli döyüşlərdən sonra rayon ərazisini işğal edə biliblər. Kəlbəcərdə erməni vəhşiliyinin tarixçəsi 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ağdaban və Çayqovuşan kəndlərinə qəfil hücumla başlayıb. Burada əhaliyə amansız divan tutulub, günahsız insanlar işgəncələrə məruz qalıblar. Ermənistan silahlı dəstələri 1993-cü il martın 27-də genişmiqyaslı hücuma keçərək aprelin 2-də rayonu tamamilə işğal ediblər. Başlıbel kəndinin 62 sakini isə işğaldan sonra üç aydan artıq müddətdə mühasirədə qalaraq dağlara sığınıblar. Onlardan yalnız 30 nəfəri sağ qalıb.

Kəlbəcərin işğalı ilə əlaqədar BMT Təhlükəsizlik Şurası 822 saylı qətnamə qəbul edib. Qətnamədə erməni silahlı qüvvələrinin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunur. Lakin Təhlükəsizlik Şurasının digər 3 qətnaməsi kimi, bu qətnamə də indiyədək yerinə yetirilməyib.

Kəlbəcərin 60 min nəfər əhalisi hazırda respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşıb. Onlar da dövlətimizin diqqət və qayğısı ilə əhatə olunublar. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın məcburi köçkünlərin sosial problemlərinin həlli ilə bağlı tapşırıqlarının icrası nəticəsində kəlbəcərli didərginlərin də mənzil-məişət şəraiti, maddi vəziyyəti yaxşılaşdırılır.

Anım tədbirində çıxış edən kəlbəcərli ziyalılar və ictimai fəallar buna görə dövlətimizin rəhbərlərinə minnətdarlıq bildiriblər.

Azərbaycan Ordusunun Aprel zəfərinin 3-cü ildönümünə təsadüf edən anım tədbirinin iştirakçısı olan qazilər isə silahdaşları ilə birgə bu zəfərin qazanılmasında göstərdikləri şücaətlərdən söz açaraq deyiblər ki, Ali Baş Komandanın əmrini gözləyən qəhrəman əsgər və zabitlərimiz torpaqlarımızı işğaldan azad etməyə hər an hazırdırlar.

Sonda Kəlbəcərə həsr olunmuş film nümayiş etdirilib.

**AZƏRTAC**

*Sun Cinvu:*

# Prezident İlham Əliyevin apardığı hərtərəfli siyasət nəticəsində Azərbaycan böyük inkişafa nail olub



**Prezident İlham Əliyevin apardığı hərtərəfli siyasət nəticəsində Azərbaycan böyük inkişafa nail olub.**

Bunu AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədr müavini, Ümumçin Siyasi Məşvərət Şurasının üzvü Sun Cinvu deyib. İki il əvvəl Bakıya səfərini xatırladan Sun Cinvu qeyd edib ki, Azərbaycanda olarkən ölkənin inkişafının şahidi olub.

"Bakı çox gözəl şəhərdir, çox xoşuma gəldi. İnanıram ki, Azərbaycan gələcəkdə daha da inkişaf edəcək", - deyə Sun Cinvu bildirib.

Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədr müavini Azərbaycan-Çin münasibətlərinin bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu deyib.

**AZƏRTAC**

*Karl Kulessa:*

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bizim etibarlı tərəfdaşımızdır

**Aprelin 2-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova BMT-nin Əhali Fondunun Türkiyədəki nümayəndəsi, Azərbaycan və Gürcüstan üzrə ölkə direktoru Karl Kulessa və BMT-nin Əhali Fondunun Azərbaycandakı nümayəndəliyinin baş müşaviri Fərid Babayev ilə görüşüb. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsinin mətbuat xidmətindən məlumat verilib.**



Komitə sədri Hicran Hüseynova BMT-nin Əhali Fondu ilə birgə əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasında qadın hüquqlarının müdafiəsi, məişət zorakılığı ilə mübarizə, gender bərabərliyinin təmini və digər mühüm sahələr üzrə həyata keçirilən layihələrin müsbət nəticələri və davamlı olmasının əhəmiyyətini qeyd edib. O bildirib ki, fəal ikitərəfli əməkdaşlıq səviyyəsinin daha da möhkəmləndirilməsi istiqamətində mühüm işlər davam etdirilməkdədir.

Hicran Hüseynova əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinin, dayanıqlı iqtisadi inkişafa nail olunmasının, bütün sahələrdə gender bərabərliyinin təmin edilməsinin Azərbaycan hökumətinin daim diqqətində olduğunu vurğulayıb. Komitə sədri Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində bu gün ölkəmizdə qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində mühüm addımların atıldığını qeyd edib. O, qadınların işgüzar və intellektual potensialından səmərəli istifadə edilməsi, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, sahibkarlığın inkişafı kimi prioritet məqsədlərin reallaşmasının əhəmiyyətini vurğulayıb: "Gender bərabərliyinin təmin edilməsi, bütün sahələrdə qadınların və qızların imkanlarının genişləndirilməsi bizim əsas hədəflərimizdəndir". O, eyni zamanda, ölkə qarşısında BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi kimi çox mühüm bir öhdəliyin olduğunu deyib.

Komitə sədri məişət zorakılığı ilə mübarizə sahəsində görülən tədbirlər, bölgələrdə yaradılan monitorinq qruplarının fəaliyyəti barədə də qonaqları ətraflı məlumatlandırıb. O, eyni zamanda, digər dövlət qurumlarının da öz fəaliyyətlərində qadın amilinə önəm verdiklərini bildirib.

BMT-nin Əhali Fondunun Türkiyədəki nümayəndəsi, Azərbaycan və Gürcüstan üzrə ölkə direktoru Karl Kulessa deyib ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bizim vacib və etibarlı tərəfdaşımızdır. Biz əməkdaşlıq çərçivəsində uğurlu layihələrə imza atmışıq. O, Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq istiqamətində aparılan işlərin səviyyəsini yüksək qiymətləndirib. Xüsusən də Azərbaycanda gender əsaslı zorakılıqla mübarizə adlı layihənin icrasının əhəmiyyətini qeyd edib. Bildirib ki, layihənin məqsədi gender əsaslı zorakılıqla mübarizədə səmərəli istiqamətləndirmə və cavab mexanizminin yaradılmasına dəstək verməkdir.

Karl Kulessa bu il BMT-nin Əhali Fondu tarixində iki əlamətdar hadisənin - Fondun yaradılmasının 50 illik və Azərbaycandakı fəaliyyətinin 25 illik yubileylərinin qeyd olunacağını diqqətə çatdırıb.

BMT-nin Əhali Fondunun Azərbaycandakı nümayəndəliyinin baş müşaviri Fərid Babayev cari il ərzində həyata keçiriləcək tədbir və layihələr barədə məlumat verib. O, BMT Əhali Fondunun bu sahələrdə Azərbaycanla əməkdaşlığı davam etdirməyə xüsusi önəm verdiyini deyib.

Görüşdə qadın və uşaq hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmini, həyata keçirilən müvafiq layihələrdə səmərəliliyin artırılması ilə bağlı müzakirələr aparılıb.

**AZƏRTAC**

# Tərtərdə Aprel şəhidlərinin adına ağaclar əkilib

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşəbbüsü və təşkilatçılığı, Müdafiə Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Tərtər Rayon İcra Hakimiyyətinin dəstəyi ilə əvvəllər Dağlıq Qarabağın inzibati ərazisi olmuş Şıxarx qəsəbəsində 2016-cı ilin Aprel döyüşlərində Talış yüksəkliyi istiqamətindəki döyüşlərdə şəhid olmuş 70 hərbçinin şərəfinə ağacəkmə aksiyası keçirilib. Bu məqsədlə ayrılmış torpaq sahəsində ağac tingləri ay-ulduz formasında əkilib.**



Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Sabir Əhmədov, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Qarabağ müharibəsinin veteranı, Azərbaycanın Milli Qəhrəmanı Mövsüm Məmmədov, keçmiş Tərtər özünümüdafiə batalyonunun qərargah rəisi Pənah Məmmədov, Aprel döyüşlərinin iştirakçısı istefada olan kapitan Hikmət Məmmədov, şəhid Vüsal Alıyevin anası Şahnaz Alıyeva, şəhid Rahim Tağıyevin həyat yoldaşı Vüsalə Tağıyeva, şəhid Əlizaman İslamovun anası Hürnisə Kərimova, şəhid Nurlan Əsgərlinin anası Ziba Əsgərova, şəhid Sahil Şirinovun anası Şəhla Şirinova, şəhid Teymur Qasımovun anası Gülnar Qasımova tədbirdə çıxış edərək torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canını fəda edən igid hərbçilərimizin xatirəsinin xalqımız üçün əziz olduğunu, dövlətimizin şəhidlərə böyük ehtiram, onların ailələrinə xüsusi diqqət və qayğı göstərdiklərini bildiriblər.

Qeyd edilib ki, üç il əvvəl möhtərəm Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu işğalçı qüvvələrə ağır, sarsıdıcı zərbə vurub. Torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində mühüm bir addım atılıb. Prezident İlham Əliyev Aprel döyüşlərini dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən şanlı hərbi qələbə kimi dəyərləndirib.

Tədbirdə iştirak edən şəhid ailələrinin üzvləri dövlət qurumlarının burada olan nümayəndələri və hərbçilərlə birlikdə ərazidə ağac tingləri əkdilər. Üstünə Azərbaycan bayrağı bərkidilmiş hər tingin qarşısında bir şəhidin şəklinin və bioqrafik məlumatlarının əks olunduğu lövhə yerləşdirilib.

Sonra tədbir iştirakçıları Şıxarx qəsəbəsində məcburi köçkünlər üçün salınmış qəsəbədəki klub-icma mərkəzində şəhidlərimizə ehtiram əlaməti olaraq verilən ehsan məclisində iştirak ediblər.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Amerikada çıxan "The Trentonian" qəzetində azərbaycanlıların soyqırımı haqqında məqalə dərc edilib

**ABŞ-ın Nyu-Cersi ştatında çıxan "The Trentonian" qəzetində Azərbaycan icmasının üzvü Gülnarə Mehdiyevanın məqaləsi dərc olunub.**

AZƏRTAC xəbər verir ki, 1918-ci ilin mart ayında Azərbaycanda baş vermiş hadisələrə həsr edilmiş məqalə Amerika ictimaiyyətini azərbaycanlıların soyqırımı haqqında məlumatlandırmaq məqsədilə ABŞ Azərbaycanlılar Şəbəkəsinin hər il keçirdiyi kampaniya əsasında hazırlanıb. Materialda qeyd edilir ki, azərbaycanlıların soyqırımı 1918-ci il 31 mart-1 aprel günlərində Bakı, Şamaxı, Göyçay və Qubada etnik azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilməsini, habelə XIX və XX əsrlərdə Azərbaycan xalqına böyük məşəqqətlər gətirmiş digər faciəli hadisələri əhatə edir. Tarixçilərin hesablamalarına görə, illər boyu baş vermiş soyqırımı nəticəsində həlak olmuş azərbaycanlıların ümumi sayı 500 min nəfərdən çoxdur. Qeyd olunur ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti (AXC) elan ediləndən sonra "Mart hadisələri" AXC hökuməti tərəfindən təhqiq edilib, 1919-cu və 1920-ci illərdə isə 31 mart tarixi AXC-də Milli Matəm Günü kimi qeyd olunub.

Sovet hakimiyyəti illərində Azərbaycan xalqı azərbaycanlıların soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edə bilmirdi, lakin 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa olunandan sonra azərbaycanlılar 1918-ci ilin bu faciəli günlərinin ildönümünü həm ölkədə, həm də xaricdə qeyd edirlər.

Azərbaycanlıların 1918-ci il soyqırımı tarixdə "1918-ci ilin Mart hadisələri" adı ilə də məşhurdur. Bu qırğın Stepan Şaumyanın rəhbərliyi və bolşeviklərin köməyi ilə "Erməni İnqilabi Federasiyası" (Daşnaksütyun) silahlı dəstələri tərəfindən Bakı, Şamaxı, Quba, Göyçay, Lənkəran və onlara yaxın yaşayış məntəqələrində dinc azərbaycanlı əhaliyə qarşı törədilib. Erməni millətçilər Qubada yüzlərlə Azərbaycan yəhudisini də amansızcasına məhv ediblər.

1998-ci ildə isə Prezident Heydər Əliyevin Fərmanı ilə 31 mart günü hər il qeyd edilən Azərbaycanlıların Soyqırımı Günü kimi təsis edilib.

**AZƏRTAC**

Azərbaycan Xalça Muzeyi Açıq Tender Elan Edir

Tender 1 (bir) lot üzrə keçirilir:

Lot-1. Kondisioner, havalandırma, ventilyasiya sistemi, isitmə, su təchizatı, lift, eskalator, dizel generator, yanğın təhlükəsizliyi, videokamera, BMS idarəetmə və UPS telefon avadanlığı sistemləri texniki servis xidməti.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

Ünvan: Bakı şəhəri, Səbail rayonu, M.Useynov prospekti 28

Lot üzrə iştirak haqqı: 160 (yüz altmış) manat

Əlaqələndirici şəxs: Həşim Hüseynov
Telefon: 497-20-59

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
H/h:
AZ35CTRE00000000000002178305
VÖEN: 1700219551
Bank: DXA
Kodu: 210005
Bankın VÖEN-i: 1401555071
M/h:
AZ41NABZ01360100000000003944
SWİFT: CTREAZ22
Təsnifat kodu: 142340
Səviyyə kodu: 7

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
—tenderdə iştirak etmək üçün ərizə;
—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
—tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
—tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
—iddiaçının son iki il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;
—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;
—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, tikinti-quraşdırma və xüsusi torpaq işləri ilə bağlı lisenziyasının vacibliyi.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank zəmanəti istisna olmaqla 6 may 2019-cu il saat 17:00-dək, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 15 may 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 16 may 2019-cu il tarixdə, saat 12:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

# Professor Əbdüləzəl Dəmirçizadə

## (Xatirə, düşüncə və mülahizələrim)

**Tələbəlik illərində alim-müəllimlərimdən - Əbdüləzəl Dəmirçizadə, Məmmədhüseyn Təhmasib, Feyzulla Qasımzadə, İsmayıl Şıxlı, Məmmədsəlim Tahirli, Əhəd Hüseynov, Fərhad Fərhadov, Cavad Bağırov, Afad Qurbanov, Azər Hüseynov, Əbdül Əlizadə, Paşa Əfəndiyev, Xeyrulla Məmmədov və digərlərindən aldığım mükəmməl elmi bilik, gərəkli məsləhətlər, zəngin həyat təcrübəsi mənə möhkəm bir dayaq oldu. Bu gün də fəxr edirəm ki, məni elm sahəsinə gətirən, qayğılarını əsirgəməyən belə alim-müəllimlərdən dərs almışam. Adlarını çəkdiyim və çəkmədiyim müəllimlərim mənəviyyatca zəngin şəxsiyyətlər idilər. Onlar həyatda yalnız bir amala xidmət edirdilər: tələbələrə elmi bilik vermək, öz vəzifələrini layiqincə yerinə yetirmək! Bu isə bizim nəslin xoşbəxtliyi idi. Ulu Tanrı onları bizə elə bil ərməğan göndərmişdi. Onların hər bir hərəkəti, mülayim, yaxud ciddi, tələbkar baxışları, çöhrələrindəki xeyirxahlığa çağıran cizgiləri bizə müəllim olmaq üçün düzgün yol göstərdi, bununla mənəviyyatımızı daha da zənginləşdirdi. Onların hər birindən bir nümunə götürməyə, onlara oxşamağa çalışdıq.**



Bəxtim onda gətirdi ki, sözün əsl mənasında, klassik səviyyədə elmi məktəb keçdim. Təhsil aldığım və sonra isə işə qəbul olunduğum Azərbaycan Dövlət Pedaqoji İnstitutu, o cümlədən Azərbaycan dilçiliyi kafedrası filologiya sahəsinin, dilçilik elmimizin ağırlıq mərkəzlərindən biri idi. Kafedra müdiri, görkəmli alim, professor Əbdüləzəl Dəmirçizadə kimi nəhəng bir elm adamı ilə birgə çalışmaq mənim elmi bioqrafiyamda ən şərəfli bir səhifə açıb desəm, yanılmaram. Mən bu müdrik zəka sahibinin yanında həqiqi bir elm məktəbi keçdim. Onun mənə verdiyi gərəkli tövsiyələr gələcək elmi-pedaqoji inkişafımda əsaslı rol oynadı.

O, əsl dəmirçi oğlu idi. Taleyində nəslinin dəmirçi möhkəmliyi şəxsiyyətinin intellektual ucalığı ilə qovuşmuş, bütöv bir vəhdət yaratmışdı. Bədii təxəyyül zənginliyi, elmi təfəkkür qüdrətilə sonsuz zəhmətdən, fədakar, yaradıcı şərəfli əməkdən yaranmışdı Dəmirçizadə dünyası. Bu görkəmli alim ana dilinin, Azərbaycan türkcəsinin ürək döyüntülərini, qan yaddaşını həssaslıqla duyurdu. O, dilin keçib gəldiyi tarixin təkamül yollarının ayağı dəmir çarıqlı, əli dəmir əsalı müdrik yolçusu olmaq bacarığına malik idi. Sanki tale onu dilimizin bəxtinə seçib göndərmişdi. O, Mahmud Kaşğari, Mirzə Kazım bəy, Bəkir Çobanzadə və digər elm korifeylərinin mənəvi varisi, ən sədaqətli, olduqca fədakar davamçılarından idi.

Onun elmi fəaliyyətində, yüksəlişində təsadüflər yox, zərurətlər, intellekt və istedadın, zəhmət və fədakarlığın bütöv vəhdətinə əsaslanan özünəməxsus təkamül yolu mühüm rol oynamışdı. Mühazirələrində dəfələrlə fəxrlə xatırladığı kimi, Bəkir Çobanzadədən, Əbdürrəhim bəy Haqverdiyevdən, Yusif Vəzir Çəmənzəminlidən, Abdulla Şaiqdən dərs almış, onların tələbəsi olmuşdu. Səməd Vurğun, Süleyman Rüstəm, Əbulhəsən, Sabit Rəhman, Həmid Araslı, Cəfər Xəndan, Salam Qədirzadə və başqa görkəmli elm və sənət adamları ilə sinif, məktəb yoldaşı olmuşdu. Ə.Dəmirçizadə məhz belə bir mühitdə qüdrətli alim kimi yetişmiş, güclü imkanlarını praktik fəaliyyətində reallaşdıra bilmişdi. Uzun illər mərhələli şəkildə keçdiyim elmi-pedaqoji fəaliyyətimdən belə qənaətə gəlmişəm ki, fitri təməl və anadangəlmə potensial imkanlar insanın inkişafında əsas rol oynayır. Ə.Dəmirçizadənin bənzərsiz dünyası bunu təsdiq edən uğurlu nümunələrdəndir. E.Struve, İ.Meşşaninov, A.Kononov, N.Dmitriyev kimi onlarca məşhur dilçi alimin elmi təfəkkürünü yüksək qiymətləndirdiyi, təsdiq və səmimi etiraf etdiyi Ə.Dəmirçizadənin uğurları bu günün özündə də bizim üçün elmi araşdırmalarda əsas istinad nöqtələrindən biridir.

Professor Ə.Dəmirçizadə bizə "Tarixi qrammatika" və "Azərbaycan ədəbi dilinin tarixi"ndən mühazirələr oxuyurdu. Biz tələbələr ona tarix yaşlı, tarix yaddaşlı əlçatmaz bir varlıq, Azərbaycan dilçilik elminin canlı klassiki, əfsanəvi ustadı kimi baxırdıq. O, qeyri-adi elmi-nəzəri fikirləri, analitik məntiqi, ciddi elmi təfəkkür tərzi ilə bizi valeh edir, heyrətləndirir, daxilən ucaldırdı. O zaman da, elə indinin özündə də Azərbaycan dilçilik mühitində "professor" deyəndə hamı bilirdi ki, söhbət Əbdüləzəl Dəmirçizadədən gedir. Söhbət elə bir mahir alim-pedaqoqdan, elmi bir fikir nəhəngindən gedir ki, o, bütün yaradıcılığını, mənalı ömrünü, misilsiz alim taleyini Azərbaycan dilçiliyinin inkişafına, tərəqqisinə həsr etmişdir.

İkinci kursda professor Ə.Dəmirçizadənin auditoriyaya ilk gəlişini səbirsizliklə gözləyir, az qala mifik obraza çevrilən böyük alimlə tanış olmağa tələsirdik. Bütün tələbələr kimi, mən də barmaqla sayılacaq qədər az olan dilçilik nəhənglərindən birinin, çağdaş dilçiliyimizin canlı klassikinin bizə dərs deyəcəyinin həyəcanı vahiməsi içində idim. Budur, başında mil-mil araqçın, bəmbəyaz çöhrəsindən müdriklik yağan, məsumluq tökülən əfsanəvi professor auditoriyaya daxil olur və biz onun salamını alaraq alim nəhəngliyinin xofu qarşısında əyləşib heyrət dolu nəzərlərlə ona baxırıq. Bəstəboylu professor gənclərə dilçilik elminin və müəllimliyin ilk sirlərini aram-aram öyrətməyə başlayır, üzümüzə qəfildən sirlər dünyasının qapılarını açır, bizləri müqəddəs elm aləminə dəvət edir. Qədim yazılı daş abidələrin sirlərini aça-aça türkün nəhəng tarixini vərəqləyən professorun bu yolda çəkdiklərini, təqib olunduğunu, təzyiqlərə məruz qaldığını eşitdikcə, keçib gəldiyi əzablı yollarla tanış olduqca ona rəğbətimiz daha da artır, bu insanın canlı tarix olduğunu dərk edirik.

O vaxt, XX əsrin 30-cu illərində amansız repressiya tufanlarından başı ağrıyan, bəlalar çəkən professoru sorğu-suala tutur, ondan bizim üçün son dərəcə maraqlı olan cavablar alırdıq. Görünür, fəal sorğu-suallarımla professorun nəzər-diqqətini cəlb etmişdim və bəzən də onun mənə verdiyi suallar, güman etmək olar ki, haqqımda gələcək fikirlərini dəqiqləşdirmək üçün idi. Bu gümanım sonralar özünü doğrultdu.

Dəmirçizadənin dil tarixi sahəsində apardığı elmi tədqiqatlar onun mühazirələrinin də mənbəyini təşkil edirdi. Bizə məlum idi ki, bir vaxtlar onun axtarışları daha çox "Kitabi-Dədə Qorqud" dastanları ilə bağlı olmuşdu. Sovet ideologiyasına zidd olan belə tədqiqatlara görə bir vaxt Ə.Dəmirçizadəni türkçülüyü geniş təbliğ etməkdə suçlamışdılar.

Bizə məlum idi ki, 30-cu illərin dəhşət doğuran qanlı repressiyaları ədəbiyyatımızdan, dilçilik elmimizdən də yan keçməmişdir. Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Almas İldırım, Salman Mümtaz, Yusif Vəzir Çəmənzəminli, Bəkir Çobanzadə, Məmmədkazım Ələkbərli və digər böyük sənət və elm adamlarına tutulan divanın acı, ağrılı dalğaları milli mənəvi yaddaşımızı göynədirdi, Dədə Qorqud ruhunun sinə dağına çevrilirdi. Stalin güruhunun "Dədə Qorqud" eposuna qarşı heç bir fakta söykənməyən hücumları, bu dastanları xalqlar arasında düşmənçilik yaymaqda ittiham etməsi, "yuxarıların" tapşırığı ilə Bakıda çağrılan "Azərbaycan ziyalılarının respublika müşavirəsi"nin də bu misilsiz abidəni ləkələyib tariximizdən silib atmağa cəhd göstərməsi, mənəviyyatımıza, ədəbi dəyərlərimizə vurulan zərbə idi. Heydər Hüseynov, Əbdüləzəl Dəmirçizadə, Məmməd Arif, Həmid Araslı kimi ciddi alimlərin təqib və təhqir olunması bütün bunlar xalqımızın etnogenez, qlottogenez problemlərinin elmi həllinə can atanlara, bu yolda "Kitabi-Dədə Qorqud" dil faktına əsas tarixi, etnolinqvistik baza kimi söykənənlərə kütləvi repressiv təzyiqlər idi. Onları məcbur etmişdilər ki, qələmə aldıqları elmi əsərlərini təcili geri götürsünlər, "buraxdıqları səhvlərini" etiraf etsinlər. Bunlarla yanaşı, "Kitabi-Dədə Qorqud" dastanları xalqa zidd, yabançı, yeni nəslə mənfi təsir göstərən zərərli bir əsər kimi orta və ali məktəblərin tədris proqramlarından çıxarılmışdı. Doğrudur, 1956-cı ildə avtoritar rejimin baş rəhbəri Stalinin şəxsiyyətə pərəstiş dövrü qurultay səviyyəsində ciddi tənqid ediləndən və repressiya xofu tədricən aradan qalxandan sonra ədalət bərpa olundu, təqib olunan və repressiyaya məruz qalan bir çox insanlar bəraət qazandı. Yalnız bundan sonra, Ə.Dəmirçizadənin "Kitabi-Dədə Qorqud" dastanlarının dili" adlı monoqrafiyası işıq üzü gördü...

Professor qədim yazılı abidələrin dili ilə bağlı mənə referat yazmağı tapşıranda sevincimin həddi-hüdudu yox idi. Mən böyük bir inamın sevincini yaşaya-yaşaya onu doğrulda biləcəyimin nigaranlığını da yaşayırdım. Çox illər keçəndən sonra indi düşünürəm ki, professorun həmin işlə bağlı mənə olan etimadı və referatıma verdiyi müsbət rəy, etibarı gələcək dilçi taleyimin uğurlu xeyir-duası oldu. Əbdüləzəl Dəmirçizadədən aldığım ilk mənəvi dəstək sonrakı illərdə mənim dilçilik elmi sahəsində qazandığım uğurlara yaşıl işıq yandırdı.

Sonralar professorun isti münasibətini gördükcə, onun qayğısını hiss etdikcə, monoqrafik tədqiqat səviyyəli elmi mühazirələrinə qulaq asdıqca artıq məndə "Dəmirçizadənin fənni"nə - ədəbi dil sahəsinə meyil, maraq güclənir, nəzərimdə qəribə problemlərin konturları cızılırdı. Bu problemlər isə bir müddət sonra mənim tədqiqat mövzularıma çevriləcəkdi.

Mən "Nizami Gəncəvi" təqaüdünə təqdim olunanda Elmi Şurada professorun haqqımdakı müsbət çıxışı mənə qol-qanad verdi, elmi, yaradıcı gücümü yenidən səfərbər etdi, əsas məqsədə istiqamətləndirdi.

Tale elə gətirdi ki, arzularım çin oldu. Demə, bu görkəmli alim, Azərbaycan dilçiliyinin banilərindən olan professor Ə.Dəmirçizadə mən hələ tələbə olarkən dilçilik elmi sahəsinə olan həvəsimi mahir pedaqoq həssaslığı ilə duymuş, elmi intuisiyama, araşdırıcılıq qabiliyyətimə bələd olmuş, hətta bu keyfiyyətlərə malik olduğumu hansısa bir mötəbər elmi yığıncaqların birində xüsusi olaraq qeyd etmişdi. Sonralar onu da aydınlaşdıra bildim ki, görkəmli alim-pedaqoq dilçiliyin ən az toxunulan ədəbi dil sahəsini geniş tədqiq etmək üçün layiqli elmi kadr axtarışında imiş. Bəxtim onda gətirmişdi ki, onun elə ilk rastına çıxan da mən olmuşam.

Professor Ə.Dəmirçizadə kimi tələbkar bir alimin inamını qazanmaq, ümidini doğrultmaq lazım idi. Kafedraya əmrimi alıb müəllim kimi gəldiyim günü - professor Ə.Dəmirçizadə ilə görüşümü və mənimlə ilk söhbətini heç vaxt yadımdan çıxara bilmirəm.

Professor soruşdu ki, hansı sahəni seçib, hansı dərsləri demək istəyirsən?

Əvvəlcə tərəddüd etdim. Sonra isə çəkinə-çəkinə dilçiliyimizin hansı sahəsi məsləhət bilinsə, o sahədə çalışmaq və dərs demək istədiyimi bildirdim.

Professor çox asta-asta və özünəməxsus təmkinlə dedi ki, çox fənləri yüksək səviyyədə tədris edən müəllimlərimiz var. Sən dil tarixi ilə məşğul olmalı və bu sahədə dərs deyib, elmi araşdırmalar aparmalısan. Ona görə də sən bünövrədən - "Qədim türk yazılı abidələri"ndən dərs deməli, dil tarixini mükəmməl öyrənməlisən. Sənə I semestrdə dərs verməyəcəyəm. Amma maaşını alacaqsan. Bu müddətdə "Qədim türk yazılı abidələri"ni mükəmməl öyrənmək üçün ciddi hazırlaşmalı, mərkəzi şəhərlərdə, türkdilli respublikalarda, müxtəlif kitabxanalarda olmalı, mütəxəssislərlə görüşməli və abidələrin tapıldığı yerlərə gedib onlarla ətraflı tanış olmalısan. Öyrənmişəm, ailə vəziyyətiniz də buna imkan verir... Sənin ezamiyyət məsələlərini də özüm rektorla danışacağam.

Həqiqətən də həssas və xeyirxah insan olan prof. Ə.Dəmirçizadə ezamiyyət məsələlərini həll etdi və mən bir ay Moskva şəhərində, o zamankı Lenin adına kitabxanada, sonra Sankt-Peterburqda (Leninqradda), Qazaxıstanda, Qırğızıstanda - Baykal gölü ətrafında, Sibirdə - Yenisey çayı sahillərində, abidələrin tapıldığı yerlərdə oldum. Mütəxəssislərlə görüşüb, onların məsləhətlərini eşitdim, xeyli məsələləri özüm üçün aydınlaşdırdım. Professor Ə.Dəmirçizadənin göstərişi ilə ayda bir dəfə kafedra iclaslarında hesabat verir, səfərlərim, görüşlərim və qeydlərim əsasında öyrəndiklərimi məruzə edir, professorun elmi məsləhətlərini dinləyir və yenə də fəaliyyətimi davam etdirirdim.

Heç yadımdan çıxmaz - prof. Ə.Dəmirçizadə çox çətinliklə mənə Şimali Monqolustana - Orxon çayı sahillərinə, abidələrin böyük bir hissəsinin tapıldığı məkana getmək üçün viza - icazə və elmi ezamiyyət aldırdı. Mən SSRİ dövründə - xaricə getmək çətin olduğu bir vaxtda Monqolustana elmi ezamiyyətə - Orxon vadilərinə getdim. Abidələrlə tanış oldum. Mütəxəssislərlə görüşüb, onların dəyərli məsləhətlərini dinlədim. Xeyli elmi material və ixtisasa uyğun kitablarla Bakıya qayıtdım. Beləliklə, II semestrdən - fevral ayının 9-dan "Qədim türk yazılı abidələrinin dili"ndən dərs deməyə - seminar məşğələləri aparmağa başladım. Uzun müddət mən bu fənni tədris etdim və onu daha mükəmməl öyrəndim. Eyni zamanda, Müasir Azərbaycan dilindən də məşğələlər aparırdım.

(davamı 6-cı səhifədə)

# Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının səyyar görüşləri





Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev təsdiq etdiyi plana uyğun rayonun ən ucqar dağlıq ərazisində yerləşən kəndlərində səyyari görüşlər keçirilir. Vətəndaşların müraciətləri diqqətlə dinlənilir və dərhal öz həllini tapır. Növbəti qəbul, Çanaqçı kəndində idarə, müəssisə, təşkilatların, hüquq-mühafizə orqanların rəhbərlərinin və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə keçirmişdir.

Görüşə gəlmiş Çanaqçı kənd sakinlərini salamlayan Əhəd Abıyev vətəndaşlarla keçirilən hər bir görüşdən məmnun olduğunu, qaldırılan problemlərin və verilən təkliflərin yerinə yetirilməsi üçün aidiyyəti qurumlar tərəfindən konkret və əməli tədbirlər görüldüyünü diqqətə çatdırmışdır. Bildirmişdir ki, Qaraqullar-Çanaqçı, Çanaqçı-Zivlan avtomobil yolunun təmiri, mühüm sosial və mədəni obyektlərin inşası yerli əhalinin böyük razılığına səbəb olmuşdur.

Əhəd Abıyev çıxış edərək Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan geniş abadlıq və quruculuq işləri barədə ətraflı məlumat vermişdir. Ötən dövrdə respublikamızda yeni yolların çəkilişi, içməli su, qazlaşdırma, elektrik enerjisi ilə təminat, meliorasiya ilə bağlı layihələr uğurla icra olunmuşdur.

Əhəd Abıyev 29 yanvar 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Təhsil müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində Çanaqçı kəndində modul tipli tam orta məktəbin tikintisinin nəzərdə tutulduğunu sakinlərin diqqətinə çatdıraraq onları təbrik etdi. Bildirdi ki, Dövlət Proqramı hazırlanarkən yerlərdə vətəndaşlar tərəfindən irəli sürülən təkliflər əsas götürülmüşdür.

Kənd sakinlərindən Qurbanov Pirverdi Əlirza oğlu, Quliyev Xəqani Əli oğlu, Tanrıverdiyeva Lalə Şirvan qızı, Məmmədov Ramiz İlyas oğlu çıxışlarında qeyd etdilər ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gündəlik diqqəti və qayğısı nəticəsində ölkə əhalisinin rifah halı gündən-günə yaxşılaşır. Bunu gündəlik həyatlarında açıq-aşkar hiss edirlər.

Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurumların rəhbərlərinə tövsiyə və tapşırıqlarını verdi.

* * *

Növbəti səyyar qəbul Zəylik kəndində keçirildi. Səyyar görüşdə rayonun hüquq-mühafizə orqanlarının, səhiyyə, təhsil, mədəniyyət, digər xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak edirdilər.

Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev ölkəmizin sürətli sosial-iqtisadi inkişafından, eləcə də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq Daşkəsən rayonunda həyata keçirilən irimiqyaslı sosial infrastruktur layihələrinin həyata keçirilməsindən, əhalinin məşğulluğun yüksək səviyyədə təmin olunması məqsədi ilə yaradılmış yeni iş yerlərindən, abadlıq, quruculuq, yenidənqurma işlərindən geniş söz açdı.

Sonra qəbulda çıxış edən kənd sakinləri görülən işləri müsbət qiymətləndirib, həmçinin onları narahat edən mövcud problemlərə toxundular. Kənddə tibb məntəqəsinin və kənd mədəniyyət evinin təmiri, Quşçu-Zəylik avtomobil yolunun təmiri və digər şəxsi problemlər sakinlər tərəfindən səsləndirildi.

Qəbul zamanı vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bəzilərinin həlli ilə bağlı aidiyyəti müəssisə və təşkilatların rəhbərlərinə müvafiq tapşırıqlar verildi.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Abbas İsmayılov: 31 mart soyqırımı ermənilərin şovinist xislətinin təzahürüdür

**Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüssəsinin əzəməti ilə unudulmaz. 31 mart məhz fəlakət və qüssəsinin əzəməti ilə unudulmaz günlərdəndir.**

**AZƏRTAC Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xarici əlaqələr üzrə baş mütəxəssisi Abbas İsmayılovun 31 mart - Azərbaycanlıların Soyqırımı Günü barədə yazısını təqdim edir.**



Azərbaycanlıların soyqırımı 200 il ərzində ermənilərin əli ilə azərbaycanlılara qarşı həyata keçirilən qəddar siyasətdir. 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğın tarixdə görünən ən vəhşi, ən qəddar və millətimizə qarşı törədilmiş növbəti bir haqsızlıq kimi tarixə qanlı hərflərlə yazılıb. Ermənilərin Azərbaycan xalqına qarşı uzun illər ərzində həyata keçirdiyi ardıcıl etnik təmizləmə, soyqırımı və təcavüz nəticəsində minlərlə insan evindən-obasından didərgin düşüb.

Rəsmi mənbələrə görə, bu soyqırımı nəticəsində 12 minə yaxın insan qətlə yetirilib. Bir o qədəri isə itkin düşüb. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanına əsasən 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Prezident İlham Əliyevin 2018-ci il yanvarın 28-də imzaladığı Sərəncama əsasən, 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi təkcə Azərbaycanda deyil, dünyanın bir çox guşələrində yaşayan həmvətənlərimiz, diaspor təşkilatları, xaricdəki səfirliklərimiz tərəfindən geniş qeyd olunub.

Kulner soyadlı bir alman həmin hadisələrin canlı şahidi olub və 1925-ci ildə bunları yazıb: "Ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, cinsiyyət orqanları doğranmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər".

Azərbaycanlıların qırğınının fəal iştirakçılarından biri olmuş erməni zabit Ovanes Apresyan söhbətlərinin birində bildirib ki, öz məqsədlərinə çatmaq üçün ingilislərin və rusların yardımlarından faydalanmışlar və sadəcə Bakıda mart hadisələri zamanı 25 min azərbaycanlı qətlə yetirilmişdir.

Bütün bu cinayətlərə beynəlxalq ictimaiyyətin laqeyd münasibətləri erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı növbəti soyqırımı və deportasiya haqlarının törədilməsinə şərait yaradan əsas amillərdən biri olub. İrəvan quberniyasının Azərbaycan əhalisinin sayının 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə qədər azalması, 1948-ci ildə 100 min nəfərdən çox azərbaycanlının Ermənistandan deportasiya edilməsi dünyada bütöv bir xalqa qarşı həyata keçirilən zorakılıq siyasətinə biganəliyin nəticəsidir.

Bunlar erməni faşizminin yalnız ötən əsrin əvvəllərində xalqımıza qarşı həyata keçirdiyi faciələrdən biri idi. Onu da qeyd etmək lazımdır ki, ermənilər şovinist məqsədlərinə nail olmaq üçün hər bir vasitədən istifadə edərək Cənubi Qafqazda, o cümlədən Azərbaycan torpaqlarında yaşayan müxtəlif xalqlara qarşı soyqırımı siyasəti yürütmüşlər. Bu siyasətin qurbanları sırasında isə qədim dövrlərdən ölkəmizdə məskunlaşmış bir çox xalqların - ləzgilərin, yəhudilərin, tatların, kürdlərin, talışların və digərlərinin nümayəndələri də olub.

**AZƏRTAC**

## Sosial həyat

### Məşğulluq altsistemi yaxın günlərdə sınaq rejimində fəaliyyətə başlayacaq

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mərkəzləşdirilmiş elektron informasiya sistemində yaradılan Məşğulluq altsistemi yaxın günlərdə sınaq rejimində fəaliyyətə başlayacaq. Bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev jurnalistlərə açıqlamasında bildirib. Nazirin sözlərinə görə, ilk dövrdə vətəndaşların müraciəti paralel olaraq qəbul ediləcək. Yəni, vətəndaşlar həm Məşğulluq altsistemi üzərindən, həm də yerli məşğulluq mərkəzlərinə əyani şəkildə müraciət edə biləcəklər. Sınaq müddəti 2 ay davam edəcək. Cari ilin iyun ayından etibarən sistemin tam olaraq istifadəyə verilməsi planlaşdırılır.

Məşğulluq altsistemi dövlət məşğulluq xidmətlərinin keyfiyyətinin və çevikliyinin artırılması, işsiz və işaxtaranlara daha əlçatan olması üçün yaradılıb. Altsistem vakansiyalar, habelə işsiz və işaxtaranlara dair real mənzərəni əks etdirən və daim yenilənən məlumat bazasına malik olmaqla, məşğulluq xidmətləri barədə məlumatlara real vaxt rejimində çıxış və onlardan istifadə imkanı yaradır.

### Artıq 7000 şəxsə elektron qaydada pensiya təyinatı aparılıb

Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkəmizdə pensiya təyinatının elektron infrastrukturu qurulmaqla, sosial təminat sahəsində ilk proaktiv xidmət kimi cari ilin əvvəlindən avtomatlaşdırılmış pensiya təyinatına başlanılıb. Bu günədək artıq 7000 şəxsə elektron qaydada pensiya təyinatı aparılıb.

Pensiya yaşı tamam olduğu gün həmin vətəndaşlara pensiya təyinatı həyata keçirilib. Həmin gün də təyin edilmiş pensiyanın məbləği, bank kartını əldə edəcəyi bank filialı və vaxt barədə "sms", e-mail və ya rəsmi məktubla onlara məlumat verilib. Bununla da pensiya yaşı çatan vətəndaşların onlara pensiya təyin olunması üçün müxtəlif sənədlər toplamasına və bu sənədlərlə hansısa quruma müraciət etməsinə ehtiyac olmadan, onların pensiya hüququ reallaşdırılıb. Bu il pensiya hüququ yaranacaq şəxslərdən 70 faizinə, yəni 36 min nəfərə elektron qaydada pensiya təyin olunacağı proqnozlaşdırılır.

Eyni zamanda, sosial müavinətlərin də avtomatlaşdırılmış təyinat mexanizminin yaradılması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müvafiq işlər aparılır.

### 10448 tənha ahıl və əlilliyi olan şəxs evlərində sosial xidmətlə təmin olunur

Əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan, özünəqulluq qabiliyyəti olmayan və sosial xidmətə ehtiyac duyan tənha ahıllar və əlilliyi olan şəxslər (yoluxucu və ya ağır formalı ruhi xəstəlikləri olmadıqları halda) qanunvericiliyə uyğun olaraq, evlərində sosial xidmətlə təmin edilirlər. Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələrinin sosial xidmətçiləri 10448 tənha ahıl və əlilliyi olan şəxsə evlərində sosial xidmət göstərirlər. Onlar həftədə azı iki dəfə olmaqla tənha ahıl və əlil şəxslərin evlərinə gəlir, ev təsərrüfatında təmizlik işləri aparılması, zəruri ərzaq, sənaye və məişət mallarının alınması, yemək hazırlanması və s. işlərdə köməklik edirlər. Evlərində sosial xidmətlə təmin olunanlardan 85 faizə qədəri ahıllar (yaşı 70-dən yuxarı olanlar), qalanları əlilliyi olan şəxslərdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin həyata keçirdiyi "DOST xonçası" kampaniyası çərçivəsində həmin tənha ahıllar ziyarət olunur, onlara "DOST xonçası" olaraq bayram sovqatı təqdim edilir, bayram təbrikləri çatdırılır. Müxtəlif dövlət təşkilatları, özəl qurumlar, ayrı-ayrı fiziki şəxslər, tanınmış simalar "DOST xonçası" kampaniyasına qoşulurlar. Bununla bir tərəfdən cəmiyyətdə ahıllara diqqət və qayğı təşviq edilir, eyni zamanda, tənha ahıl insanlara Azərbaycan cəmiyyətinin hər zaman onların yanında olduğu əyani nümayiş olunur.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsi.**

# Professor Əbdüləzəl Dəmirçizadə

## (Xatirə, düşüncə və mülahizələrim)

(əvvəli 5-ci səhifədə)

Sonra professorun tapşırığı ilə teztez M.F.Axundov adına kitabxanaya gedir, Azərbaycan dilinin tarixinə dair mənbələri oxuyub öyrənir və çox səliqə ilə konspektləşdirib kafedraya gətirirdim. Professor yazdıqlarımı bir-bir vərəqləyir, bəzi suallar verir, mənim öz fikrimi də soruşurdu. Ardıcıl olaraq "Müasir Azərbaycan dili", "Dialektologiya", "Dilçiliyə giriş", "Üslubiyyat" və s. dilçilik sahələrinə aid kitabları, məqalələri oxuyub, konspektləşdirib professora hesabat verirdim. Professorun fikri belə idi: "Mən dilçi yetişdirirəm. O təkcə bir sahəni deyil, bütün dilçilik sahələrini bilməlidir". Biz də professor Ə.Dəmirçizadə kimi tələbkar bir alimin inamını qazanmaq, ümidlərini doğraltmaq üçün çox ciddi şəkildə çalışmalı idik. Bir müddətdən sonra professor mənə həm də "Azərbaycan ədəbi dili tarixi" fənnindən öz seminarlarını aparmaq üçün dərs verdi.

Beləliklə, günlər, aylar, illər keçir, mən dərslərimi həvəslə deyir, öz üzərimdə ciddi hazırlaşır, kitabxanalarda saatlarla oturub yazıb-oxuyub, öyrənirdim.

Professor tez-tez dərslərimdə iştirak edir, arxada oturub diqqətlə müşahidə aparır, sonra kafedra iclaslarında təəssüratını bildirir, məsləhətlərini və göstərişlərini verirdi Bir gün də apardığım seminar məşğələsini dinlədikdən sonra professorun: "Birləşmənin birində, mühazirəni də Nizamiyə yazın" tapşırığını verməsi, "Azərbaycan ədəbi dili tarixi" fənninin tədrisini mənimlə bölməsi Ə.Dəmirçizadənin böyük alim obrazını mənim nəzərimdə daha da yüksəkliklərə qaldırdı. Həmin obraz elə indi də öz yerindədir, on illər əvvəlki həmin ucalıqdadır...

Ə.Dəmirçizadə elmi rəhbərim kimi əlimdən tutub dilin tarixində gəzdirdi. Bu tarixin qaranlıqlarından tapılan "söz"ün üzərində işləməyi öyrətdi. Azərbaycan ədəbi dilinin tarixi kimi nisbətən az işlənən, ənənəvi problem, mübahisə, diskussiya bolluğu ilə seçilən bir sahədə tədqiqat aparmağı öyrətdi. Gərgin elmi polemikaları aparmağı bacardığım üçün müəllimə borcluyam. Çünki, onun göstərdiyi yolla gedirdim, məsləhətlərinə daim əməl edirdim. Ə.Dəmirçizadədə öz yetirmələrini elmi yaradıcılığa, elmi fədakarlığa, yorulmaz axtarışlara hazırlamaq, təlqin və təsdiq etmək qüdrəti vardı.

Mən professorla eyni fənni "Azərbaycan ədəbi dili tarixi"ni tədris etdiyimdən imtahanları da birgə aparır və onun imtahanlarında assistent olurdum. Ə.Dəmirçizadənin özünəməxsus imtahangötürmə metodu var idi. O deyərdi ki, "əgər tələbə mütəmadi mühazirələrdə, seminarlarda iştirak edibsə, deməli, onun dərsə aid müəyyən məlumat və anlayışı vardır. Artıq o ətraflı şəkildə öyrənə bilər". Bəzən sualı da o özü danışar və "imtahanda da öyrənmək lazımdır" deyər və tələbəyə "kafi" yox, "yaxşı" qiymət yazardı. Tələbənin "kafi" qiymət alıb təqaüddən kəsilməsini istəməzdi. Mənə də həmişə deyərdi ki, tələbəyə yüksək qiymət yazmaq lazımdır ki, həvəslənsin və ruhdan düşməyib daha yaxşı oxusun...

Dəmirçizadə adı mənə bir də ona görə əzizdir ki, digərlərinə nisbətən mənim ömür yolumda onun müəllim, alim, yol göstərən ustad kimi daha çox payı var. Onun professorluğundan, qayğıkeş, tələbkar müəllimliyindən mənim tələbəliyimdən başlanan doğmalıq və bu öyrənməyə can atan doğmalığın hərarəti ilə başlanan həyatımı bu gün Dəmirçizadə taleyinin - "Ədəbi dil tarixçisi" ömrünün davamı hesab edirəm. Məni ən çox sevindirən, qəlbimi qürur hissi ilə dolduran odur ki, ötüb keçən bütün bu illər ərzində həmin ömrü - unudulmaz ustadımın elm yolunu və onun yaratdığı, uzun müddət rəhbərlik etdiyi Azərbaycan dilçiliyi kafedrasının müdiri vəzifəsini indi mən davam etdirirəm.

Ə.Dəmirçizadə dialektologiyadan başqa, demək olar ki, dilçiliyin bütün sahələrində nüfuzlu elmi-tədqiqat işləri aparmış, sanballı, seçilən nəticələrə nail olmuşdur. Bu baxımdan, etimologiya sahəsindəki axtarışlarını, dilçiliyimizin ümumi mənzərəsində diqqəti cəlb edən tapıntılarını xüsusi olaraq qeyd etmək istərdim. "Azərbaycan", "Midiya", "Alban", "Xəzər", "Ağvan", "Muğan", "Qafqaz", "Kaspi" və başqa tarixi tutumlu sözləri etimoloji tədqiqata cəlb edən alim əslində bu vacib sahədə açar rolu oynayacaq bütöv bir sistem yaratmışdı. Onun müxtəlif məqalələri, eləcə də "50 söz" adlı fundamental fikirlər kitabı Azərbaycan etimologiyasında özünəməxsus yer tutur. Qədim türk, yunan, ərəb, fars, erməni, müasir Avropa və Asiya mənbələrinin tarixçi etnoqraflarının əsərlərinə dərindən bələd olan, heç vaxt kəskin elmi-nəzəri polemikadan çəkinməyən Ə.Dəmirçizadə XX əsr milli dilçiliyimizin etnoqrafiyası, etnolinqvistikası sahəsində ilk söz deyənlərdən, ilkin yol açanlardan biri olmuşdur. O, bütün elmi fəaliyyətində yenilikçi idi.

Ə.Dəmirçizadənin yaradıcılığında aparıcı sahə dil tarixi olmuşdur. Alimin dil tarixi ilə bağlı araşdırmaları indi bütövlükdə bu sahənin söykəndiyi ən etibarlı, ən zəngin güvənc yeridir. Çünki o, dilə, onun tarixi təkamül, inkişaf yollarına canlı bir orqanizm kimi yanaşır, xalqımızın milli mənəvi yaddaş saxlancı olan dilimizə müqəddəs məbəd kimi baxır, onu bütün qəlbi, canı ilə duyur, dərk edir, qiymətləndirir, son dərəcə həssaslıqla, əsl övlad məhəbbəti, alim-vətəndaş qeyrəti ilə tədqiqata cəlb edir, daim həqiqətin və yalnız həqiqətin qarşısında baş əyirdi.

Ə.Dəmirçizadə mürəkkəb dil tarixi məsələlərinin həlli üçün ayrı-ayrı dövrlərdə yaranmış ədəbi əsərlərin dilini araşdırır, gah çox mühüm nəticələr əldə etmək üçün əvəzsiz materiallar verən etimoloji tədqiqatlar aparır, gah da fonetika və qrammatika tarixinin öyrənilməsi işini davam etdirir. Bütün bunlar bütöv vəhdət, fundamental elmi-nəzəri sistem yaradaraq dilçiliyimizdə hadisə kimi onun bütün əsərləri, o cümlədən "Azərbaycan ədəbi dili tarixi xülasələri" (1938), "Azərbaycan ədəbi dilinin inkişaf yolları" (1958), "Kitabi-Dədə Qorqud dastanlarının dili" (1958), "Azərbaycan dilinin tarixi qrammatikası" (1967), "50 söz" (1968) kimi monoqrafik elmi-ədəbi mühitdə bir hadisə kimi qarşılanırdı. Bütün bunlar professora heç də həmişə sevinc və rahatlıq gətirmirdi. Dilimizin tarixini türk dilləri tarixinin içində axtarıb tapdığına görə 1947-ci ildə "Azərbaycan dilinin tarixi" (I hissə) əsərinin siqnal nüsxələri nəşr olunan kimi siyasi əqidəsinə görə yığışdırıldı, kütləvi çapı dayandırıldı. Əlbəttə, bu fikirlər sonra yaranan əsərlərinə səpələndi və hörmətlə qarşılandı.

Ədəbi dil tarixinin araşdırılmasının 30-50-ci illərini professor Ə.Dəmirçizadə mərhələsi adlandırsaq, səhv etmərik. Yəni bu dövrün ən ağır problemi, şübhəsiz ki, "Kitabi-Dədə Qorqud"un sistemli araşdırılmasıdır ki, bu da Ə.Dəmirçizadənin adı ilə bağlıdır.

Ə.Dəmirçizadənin Müasir Azərbaycan dili problemləri ilə bağlı araşdırmaları da çox qiymətlidir. Onun "Müasir Azərbaycan dili. Cümlə üzvləri" (1947), "Müasir Azərbaycan dilinin fonetikası" (1960), "Azərbaycan dili orfoepiyasının əsasları" (1969), "Müasir Azərbaycan dili" (I hissə) (1972) əsərlərində dilçiliyin bir sıra mühüm problemləri öz həllini tapmışdır. Cümlə üzvləri haqqındakı orijinal fikirləri, sifətin əsaslı elmi təhlil və strukturu, mürəkkəb cümlə, sadə cümlə və onun intonasiyaya görə növləri, fonetika, orfoqrafiya və orfoepiya ilə bağlı dəqiq mülahizələri və qənaətləri dilçilik elmimizdə öz dəyərli qiymətini almışdır.

Üslubiyyat məsələlərinin tədqiqi Ə.Dəmirçizadəni 30-cu illərdən, yəni tədqiqatçılığa başladığı ilk illərdən düşündürmüşdü. M.Ə.Sabir kimi böyük bir satirikin dil normalarından istifadəsi, onun satira texnikası kimi məsələlərin həlli ilə başlanan üslubi araşdırmaları 1962-ci ildə "Azərbaycan dilinin üslubiyyatı" əsərində kompleks həllini tapmışdır. Bu əsərin nəşri bütövlükdə türkologiyada hadisə idi.

Professor Ə.Dəmirçizadə əsl metodist müəllim idi. Sırf tədqiqat əsərləri ilə yanaşı, metodika sahəsindəki tədqiqləri onun fəaliyyətinin böyük bir hissəsini təşkil edir. Ə.Dəmirçizadənin Azərbaycan dilinin tədrisi metodikasına aid araşdırmaları həm orta məktəb dərslik və proqramlarını, həm qrammatikanın tədrisini, həm də tədrisin tarixini, müəllimlərə kömək xarakterli yazıları əhatə edir.

Onun 1946-47-ci illərdə yazdığı "Ana dili təlim fənlərinin əsasıdır" adlı üç böyük məqaləsində Ə.Dəmirçizadə ana dili tədrisinin inkişaf yolunu arxiv sənədləri ilə bizə təqdim edir və gəldiyi bu nəticəni aşılayırdı ki, ana dili hər şeyi dərk etmək üçün şagirdin dərrakəsini cilalayır, müsəlləh edir. Çünki, ana dilini öyrənməklə şagird, eyni zamanda dillə ifadə olunan fikirləri, məfhumları da öyrənmiş olur. Bununla o, hər şeyi dərk etməyə hazırlaşmış olur. Bütün digər fənlərin mövzusu rüşeym halında ana dilində mövcuddur.

Ümummilli liderimiz Heydər Əliyevin on illər boyu uğurla apardığı ana dili - dövlət dili siyasətinin nəticəsi idi ki, "Müasir Azərbaycan dili" əsəri də böyük diqqət sahibi, uzaqgörən dövlət başçısının imzası ilə 1972-ci ildə "Dövlət mükafatı"na layiq görülmüşdür. Bu, dilçiliyimizə, eləcə də digər alimlərlə yanaşı, Ə.Dəmirçizadə əməyinə rəhbərin verdiyi böyük qiymət idi.

Bütün ruhu ilə yaradıcı olan Əbdüləzəl müəllimin bədii duyumu, jurnalistliyi, xüsusilə ömür yolunun ilk dövrlərində, daha çox gənclik illərində yazdığı bədii əsərlərinin elmi fəaliyyəti ilə tən gəlməsi də böyük maraq doğurur. Maraq doğuran mövzulara bədii münasibətini əks etdirən özünəməxsus şeir və hekayələri, "Dədə Qorqud" librettosu və "Qaraca Çoban" pyesi Ə.Dəmirçizadənin bədii sözün imkanlarından istifadə bacarığının bariz nümunələridir. Bütün bunlar Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının müxbir üzvü, filologiya elmləri doktoru, Dövlət mükafatı laureatı, professor Ə.Dəmirçizadənin portretinə bütövlük gətirən cizgilərdir.

Ə.Dəmirçizadə təbiətən, fitrən dilçialim idi. Bədii təxəyyülü elmin qovuşuğunda, sintetik vəhdətində reallaşan Ə.Dəmirçizadə dünyası heç vaxt elmi mübahisələrdən, gərgin polemikalardan çəkinmədi, həmişə inandığı, güvəndiyi həqiqəti müdafiə və təsdiq etdi. Biz tələbələri, yetirmələri onu elm məbədinin sahibi-ixtiyarı, əfsanəvi idrak mücəmməsi kimi tanıyır və sevirdik. O, mürəkkəb problemlərlə zəngin olan ədəbi dil tariximizin keçilməz yollarına işıq salır, qırxıncı qapılarını açırdı. Yaddaşımızda beləcə əbədiyyətə dönüb, mifik bir qəhrəmana çevrilib Əbdüləzəl Dəmirçizadə...

**Nizami XUDİYEV,**
**filologiya üzrə elmlər doktoru, professor,**
**Əməkdar elm xadimi.**

# 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbirlər

### Samux

Samuxda soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra həmin qətliama həsr edilmiş sənədli film nümayiş etdirildi. Tədbiri giriş nitqi ilə açan Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev bildirdi ki, 1998-ci ildən 31 mart Azərbaycan Respublikasında dövlət səviyyəsində Azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir. Azərbaycanlıların kütləvi surətdə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli səhifələrindəndir.

Samux şəhər 3 saylı tam orta məktəbin müəllimi Gülarə



Cabbarova çıxış edərək qeyd etdi ki, 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu.

1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda və Lənkəranda ermənilər 50000 azərbaycanlını qətlə yetirmiş, evləri qarət etmiş, on minlərlə şəxsi ocaqlarından qovmuşlar. Təkcə Bakıda 30000 nəfər xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Şamaxıda 58 kənd dağıdılmış, 7000 nəfər öldürülmüşdür. Onlardan 1653-ü qadın, 965-i uşaq olmuşdur. Qubada 122, Qaradağda 150, Zəngəzurda 115 kənd yerləyeksan edilmişdir, cinsindən və yaşından asılı olmayaraq əhaliyə divan tutulmuşdur. İrəvan quberniyasında 211, Karsda isə 92 azərbaycanlı kəndi dağıdılmışdır. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərin birində göstərilmişdir ki, qısa bir zamanda bu azərbaycanlı şəhərində və onun ətrafında 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 131970 nəfər öldürülmüşdür.

İnstitut qəsəbə tam orta məktəbin müəllimi Dilarə Əsgərova xüsusi olaraq vurğuladı ki, Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradırdı. Xalqımıza qarşı aparılan soyqırımı siyasəti özünün siyasi-hüquqi qiymətini tapmadığı üçün tarixi faktlar sovet mətbuatında ermənilər tərəfindən təhrif olunur və ictimai fikir çaşdırılırdı.

Digər çıxış edənlər də xarici havadarlarının dəstəyi ilə əzəli Azərbaycan torpaqlarında məskunlaşdırıldıqdan sonra ermənilərin daim soydaşlarımıza qarşı məkrli və təcavüzkar planlar həyata keçirdiklərini birmənalı bildirdilər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

### İmişli

İmişli Rayon Heydər Əliyev Mərkəzində 31 mart soyqırım günü ilə bağlı tədbir keçirilib. Tədbirdə rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyev, hüquq-mühafizə orqanlarının rəhbərləri və rayon ziyalıları iştirak edib. Tədbir soyqırımı əks etdirən videoçarxa baxmaqla başladı və soyqırım qurbanları bir dəqiqəlik sükutla yad edildi. Sonra rayon icra hakimiyyətinin başçısı bildirdi ki, Azərbaycan xalqı çox məşəqqətli günlər yaşayıb.



Hər zaman erməni millətçiləri rusların köməyi ilə Azərbaycana qənim kəsildi. Belə ki, zaman-zaman bu himayə sayəsində Azərbaycanın torpaqlarını zəbt ediblər. Arxiv materiallarını araşdırarkən xalqımızın başına gətirilən müsibətlər haqqında yeni-yeni faktlar əldə edirik. Gördüyü kimi, ermənilərin törətdikləri soyqırımına və ərazilərimizin qeyri-qanuni zəbtinə heç zaman hüquqi-siyasi qiymət verilməyib. Yalnız ümummilli liderimiz Heydər Əliyev tərəfindən 1998-ci il 26 mart tarixli "Azərbaycanlıların Soyqırımı haqqında" fərman imzalandıqdan sonra Azərbaycanda soyqırım və deportasiya məsələlərinin öyrənilməsi, tədqiq və ictimaiyyətə təqdim edilməsi sahəsində böyük işlər aparılıb. Bu sahədə tarixi alimlərimizin üzərinə böyük məsuliyyət düşür. Hazırda Azərbaycanın tarixçi alimləri gecəli-gündüzlü əmək sərf edərək çox böyük işlər görürlər. Azərbaycan xalqının hər il qeyd etdiyi Azərbaycanlıların Soyqırımı Günü həmin məqsədlərə və dünya ictimaiyyətinin diqqətinin bu gün də davam edən şovinizm, separatçılıq hallarına cəlb edilməsinə xidmət edir. Vilyam Hacıyev qeyd etdi ki, 31 Mart - Azərbaycanlıların soyqırımı respublikada və xarici ölkələrdə müxtəlif tədbirlərlə yad olunur. Xarici dövlətlərdə fəaliyyət göstərən diaspor təşkilatlarımızın həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işi də sübut edir ki, Azərbaycan hansı yolla olursa-olsun öz torpaqlarını düşmən əsarətindən qurtaracaqdır.

### Beyləqan

31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı keçirilən anım mərasimində tədbir iştirakçıları əvvəlcə Soyqırım qurbanlarının xatirəsinə ucaldılmış abidə-kompleksini ziyarət edərək önünə gül-çiçək dəstələri düzdülər. Heydər Əliyev Mərkəzində davam edən tədbirdə Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, hüquq-mühafizə orqanları, idarə, müəssisə, təşkilat rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak etdilər. Əvvəlcə 31 Mart - Azərbaycanlıların soyqırımına həsr olunmuş videoçarx nümayiş olundu. Qətlə yetirilmiş soydaşlarımızın xatirəsi anılaraq bir dəqiqəlik sükutla yad edildikdən sonra rayon icra hakimiyyətinin başçısı Asif Ağayev çıxış edərək, 1918-ci ilin martında erməni-bolşevik silahlı birləşmələrinin azərbaycanlılara qarşı törətdiyi qırğınlar və talanlar barədə geniş məlumat verdi.

1905-1907-ci və 1918-1920-ci illərdə erməni hərbi dəstələrinin azərbaycanlılara qarşı həyata keçirdiyi kütləvi qətllər və talanlar, həmçinin 1948-53-cü illərdə soydaşlarımızın İrəvan ərazisindəki ata-baba yurdlarından deportasiya edilməsi, 1988-ci ildən başlayaraq Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədi ilə işğalçı dövlətin başladığı müharibə və onun acı nəticələri konkret faktlarla tədbir iştirakçılarının diqqətinə çatdırıldı.

Asif Ağayev qeyd etdi ki, məhz ümummilli lider Heydər Əliyevin ciddi səyi və təşəbbüsü nəticəsində erməni vəhşiliklərinə hüquqi və siyasi qiymət verilmişdir. Ulu öndərin 1998-ci il martın 26-da imzaladığı Fərmanla hər il martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

İcra başçısının birinci müavini Telman Məstanov, rayon Ağsaqqallar Şurasının üzvü Nadir Abdullayev, tarix müəllimləri Vüqar Abbasov, İlhamə Məmmədova və Rəqsanə Zeynalova bildirdilər ki, erməni şovinistlərinin tarix boyu Azərbaycan xalqına qarşı törətdiyi qanlı qırğınlar içərisində 31 mart soyqırımı amansızlığına və miqyasına görə xüsusilə seçilir. Hazırda Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağ və digər 7 rayon illərdir ki, Ermənistanın işğalı altındadır və Soyqırımı gününü bizim xalqımız heç vaxt unutmamalı, öz əzəli ata yurdunu Ali Baş Komandanımızın əmri ilə azad etməyə hər an hazır olmalıdır.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

### Şəmkir

31 mart soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş anım tədbirinə Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, millət vəkili Kamran Bayramov, Rayon İcra Hakimiyyətinin əməkdaşları, hüquq- mühafizə orqanlarının rəhbər heyətləri, təhsil və səhiyyə işçiləri, rayon ictimaiyyəti, media nümayəndələri qatılmışdılar.

Nümayəndələr əvvəlcə xiyabanda ucaldılmış soyqırım abidəsinin önünə tər çiçək dəstələri düzərək, faciə qurbanlarının xatirəsini ehtiramla anıblar. Daha sonra tədbir Şəmkir Heydər Əliyev Mərkəzində davam etdirilib. Mərasimdə çıxış edən millət vəkili Kamran Bayramov bir əsr öncə erməni daşnakları tərəfindən xalqımızın başına gətirilən müsibətlərdən danışıb.



Milli Məclisin deputatı bildirib ki, erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar edib, əhalini uşaqdan böyüyədək qətlə yetiriblər.

Tədbir iştirakçıları sonda 31 Mart Soyqırımına həsr olunmuş sənədli film izləyiblər.

Qeyd edək ki, 1998-ci il martın 26-da ulu öndər Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzalayıb. Həmin gündən başlayaraq 31 Mart tarixi Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

### Gədəbəy

Rayon mərkəzində 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbirdə RİH başçısının birinci müavini çıxış edərək bildirdi ki, 31 mart Azərbaycan Respublikasında dövlət səviyyəsində Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilir. Bu soyqırımı Azərbaycan xalqı və dövlətçiliyinin tarixində baş vermiş faciəli hadisələrlə yadda qalmışdır. Azərbaycanlıların kütləvi surətdə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tarixinin faciəli və dəhşətli səhifələrindəndir.

Bu faciəyə siyasi-hüquqi qiymət yalnız ulu öndər tərəfindən verilmişdir.

**Eyvaz HƏMİD,**
**"Respublika".**

### Ucar

Bu günlərdə Heydər Əliyev Mərkəzinin konfrans zalında Ucar Rayon İcra Hakimiyyətinin və YAP Ucar rayon təşkilatının birgə təşkilatçılığı ilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş elmi-praktik konfrans keçirilmişdir. Konfrans iştirakçılarına əvvəlcə azərbaycanlıların soyqırımını özündə əks etdirən videoçarx nümayiş etdirilmiş, daha sonra tarixin müxtəlif dövrlərində soyqırımına məruz qalmış bütün soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Konfrans iştirakçılarının diqqətinə çatdırıldı ki, mart soyqırımı 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak-erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınları əhatə edirdi. Həmin müddətdə dənizdən-dənizə "böyük Ermənistan" yaratmaq xülyasında olan ermənilər tərəfindən Şamaxda 7 min dinc sakin öldürüldü, 72 kənd dağıdıldı, Quba qəzasının isə 122 kəndi yandırıldı.



Elmi-praktik konfransda Xələc kənd tam orta məktəbin direktoru Bəxtiyar Xəlilovun "Erməni terrorizmi: tarix və həqiqətlər", şəhər 5 nömrəli tam orta məktəbin tarix müəllimi Zeynəb Əliyevanın "Qanlı illər: 1905-1907-ci illər", şəhər 2 nömrəli tam orta məktəbin tarix müəllimi Rəna Hüseynovanın "1918-ci ilin mart soyqırımı və onun mərhələli davamı", Rəstəcə kənd tam orta məktəbin direktoru Rahib Rəsulovun "1948-ci ildə azərbaycanlıların Ermənistandan deportasiyası xalqımızın növbəti faciəsidir", Təzə Şilyan kənd tam orta məktəbin tarix müəllimi Məhəmməd Ərəbovun "Müsüslü döyüşləri", Ramal kənd tam orta məktəbin tarix müəllimi Elvin Abdulovun "Ermənilərin Azərbaycan xalqına qarşı yeni torpaq iddiaları və növbəti soyqırım siyasəti (1970-ci ildən sonra)" sərlövhəli məruzələri və Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin keçirdiyi "Qarabağ həqiqətlərini dünyaya tanıdaq" adlı onlayn müsabiqədə 3-cü yeri tutmuş, Fəxri Diploma layiq görülmüş şəhər 2 saylı tam orta məktəbin 10-cu sinif şagirdi Aysel Rəsulovanın inşası dinlənilmişdir.

Çıxışlarda müxtəlif dövrlərdə ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş soyqırım siyasəti haqqında ətraflı məlumat verilmiş, qanlı hadisələrin təkrarlanmaması üçün gənclərimizin üzərinə düşən böyük vəzifələr və həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasının əhəmiyyəti xüsusi vurğulanmışdır.

**Maarif RZAYEV,**
**"Respublika".**

## Baş Prokurorluq:

# Cəlilabad sakininin qətlə yetirilməsi ilə əlaqədar təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir

**Cəlilabad rayon sakini, yanvarın 25-də itkin düşmüş 1993-cü il təvəllüdlü Sahib Mahmudovun axtarılıb tapılması istiqamətində Azərbaycan Respublikasının polis və prokurorluq orqanları əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilib ki, o, həmin tarixdə Masallı rayonu ərazisində qətlə yetirilib.**

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış tədbirlər nəticəsində Cəlilabad və Abşeron Rayon Polis şöbələrinin istintaq bölmələrində Cinayət Məcəlləsinin 177-ci (oğurluq) və 234-cü (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) maddələri ilə başlanmış cinayət işləri üzrə istintaq zamanı təqsirləndirilən şəxslər Əli Ələkbərli və Altay Ağamalızadə tərəfindən Sahib Məmmədovun şəxsi münasibətlər zəminində yanvarın 25-də Masallı rayonu ərazisində yerləşən "Adu Piramida" istirahət mərkəzində bıçaqla xəsarət yetirilərək qəsdən öldürülməsinə şübhələr üçün əsaslar müəyyən olunub.

Hazırda Sahib Mahmudovun qətlə yetirilməsində təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək istintaqa cəlb edilməsi, eləcə də iş üzrə əhəmiyyət kəsb edən sübutların əldə olunması istiqamətində zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**AZƏRTAC**

# Dövlət Sərhəd Xidməti Mətbuat Mərkəzinin Məlumatı

**Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində həyata keçirilmiş əməliyyat-axtarış və qoşun tədbirləri nəticəsində ölkə ərazisinə narkotik vasitələrin qeyri-qanuni gətirilməsinin qarşısı alınmışdır. Belə ki, mart ayının 22-də, saat 04:00 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Füzuli rayonunun Böyük Bəhmənli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində aşkaredici qurğudan dövlət sərhədinin pozulması barədə siqnal daxil olmuşdur. Sərhəd zastavası dərhal "silaha" komandası ilə qaldırılaraq həmin sahə istiqamətində hərəkət etmiş və İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru 2 nəfərə məxsus ayaq izləri aşkarlanmışdır.**

Dövlət sərhədinin pozulması ilə əlaqədar Daxili İşlər Nazirliyinin Füzuli rayon şöbəsinin əməkdaşları ilə birgə keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində 23 mart tarixində saat 07:00 radələrində Horadiz-Bakı avtomobil yolunun Füzuli rayonu Aşağı Yağlıvənd kəndi hissəsində "Opel" markalı avtomobildə olan 1 nəfər İran İslam Respublikasının vətəndaşı 1993-cü il təvəllüdlü Xeyrabadi Səccad Qurban oğlu, 2 nəfər Azərbaycan Respublikasının vətəndaşı 1989-cu il təvəllüdlü İlyasov Zöhrab Şərafəddin oğlu və 1992-ci il təvəllüdlü Əliyev Toğrul İsa oğlu şübhəli şəxs qismində saxlanılmışlar.

Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən həyata keçirilmiş əməliyyat-qoşun axtarış tədbirləri nəticəsində daha bir nəfər İran İslam Respublikasının vətəndaşı Cəfəri Fərhad Nəzi oğlu tutulmuş, ərazinə baxış zamanı ümumi çəkisi 3 kq 995 qr olan (1 kq 995 qr kokos, 2 kq marixuana və 1510 ədəd metadon həbi) narkotik vasitə aşkar olunaraq götürülmüşdür.

Qeyd olunan fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# RAGB-nin sədri Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada "Miss və Mister RAGB-2019" müsabiqəsi keçirilib

**Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada "Miss və Mister RAGB-2019" müsabiqəsi başa çatıb.**



AZƏRTAC xəbər verir ki, bu il mart ayında Azərbaycan gənclərinə xas olan ən yaxşı keyfiyyətləri təcəssüm etdirən bir gənc qız və bir gənc oğlan seçmək üçün müsabiqə elan edilib. RAGB-nin sosial şəbəkələrindəki səhifələrində aparılmış səsvermədən sonra səkkiz iştirakçı finala çıxıb.

RAGB-nin idarə heyətinin üzvü Emin Hacıyev müsabiqənin final mərhələsini açıq elan edərək deyib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi təşkilat Rusiyada yaşayan və təhsil alan gənclərin sıx birləşməsinə, onların elmi, təhsil, yaradıcılıq sahələrinə aid və ictimai xarakterli təşəbbüslərinin həyata keçirilməsinə şərait yaradır. Təşkilatın rəhbəri Leyla Əliyeva istedadlı gəncləri həmişə dəstəkləyir, onların yaradıcılıq imkanlarının reallaşdırılmasına kömək edir. E.Hacıyev deyib: "Bizim bugünkü tədbirimiz artıq ənənəyə çevrilir. Bu müsabiqəmiz başqa oxşar tədbirlərdən fərqlənir. Bizim müsabiqənin iştirakçıları münsiflər heyətinin üzvlərinə Azərbaycanın ənənələri, mədəniyyəti, milli geyimləri barədə məlumat verəcəklər. Onlar müğənni, rəqqas, intellektual və teatr sahəsinin mütəxəssisləri olacaqlar".

Müsabiqənin final mərhələsinə çıxmış iştirakçılar - Səbinə Abbasova (Moskva), Səbinə Bayramova (Moskva), Kamilla Ələsgərova (Kazan), Tünzalə Mirzəzadə (Moskva), Şahnaz Zeynalova (Perm), Anar Ağazadə (Moskva), Seymur Qarayev (Kaluqa) və Məhər Məhərrəmov (Moskva) münsiflər heyətinə öz video-vizit kartlarını təqdim ediblər. Sonra üç iştirakçı yaradıcı müsabiqə, milli geyimdə defile və müsahibə sınaqlarından keçməli olublar. Hər bir iştirakçı müəyyən obraz fikirləşib tapıb və bu obrazı səhnədə yaradıb. Olduqca parlaq və qeyri-adi nəticə alınıb.

Münsiflər heyətinə modelyer-rəssam, Rusiya Dizaynerlər İttifaqının üzvü, Parisdəki Rus Rəssamlar Assosiasiyasının üzvü Orxan Sultan, opera səhnəsinin yeni ulduzu, Rusiya Milli Qvardiyası Federal Qoşun Xidməti ansamblının solisti, beynəlxalq müsabiqələr laureatı Lali Xabalova və "Səttar" brendinin həmtəsisçisi, rəssam Cemma Səttar daxil idi.

Münsiflər heyətinin apardığı səsvermənin yekunlarına əsasən "Miss RAGB-2019" tacı G.V.Plexanov adına Rusiya İqtisad Universitetinin tələbəsi Səbinə Abbasovaya çatıb, "Mister RAGB-2019" - Rusiya Federasiyası Müdafiə Nazirliyi yanında Hərbi Universitetin kursantı Anar Ağazadə isə təşkilatçılardan kubok alıb.

Müsabiqənin qaliblərinə və digər finalçılara təşkilatçılar adından diplomlar və qiymətli mükafatlar təqdim edilib.

Tədbir maraqlı musiqi proqramı ilə davam edib.

**AZƏRTAC**

# Səhiyyənin çətin sahəsi

## *Yevlax Regional Təcili və Təxirəsalınmaz Tibbi Yardım Məntəqəsinin bu sahədəki fəaliyyəti diqqətəlayiqdir*



Dövlət başçısı cənab İlham Əliyev ulu öndərin xalqımız tərəfindən daim bəyənilən və dəstəklənən strateji siyasət kursunu səhiyyə sistemində də layiqincə davam etdirir. Bütün səhiyyə ocaqları müasir standartlara cavab verir, yüksək səviyyəli xidmət, əhalinin səhiyyə işçilərinə inamını daha da artırmışdır. Maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi, səhiyyə işçilərinin əhaliyə daha yaxşı xidmət etməsinə stimul vermişdir. Sakinlərin də artıq həkimlərə inamı yüksəlmiş, bütün anlarda onların sağlamlığının keşiyində durduqlarına əmindirlər. Belə ki, küçədə, yol-nəqliyyat hadisələrində insanların səhhətində problemlər yaranır, halı pisləşir və çətin vəziyyətdə qalırlar. Əlbəttə, belə anlarda vətəndaşlar vaxt itirmədən Yevlax Regional Təcili və Təxirəsalınmaz Tibbi Yardım Məntəqəsinin əməkdaşlarına müraciət edir, həkimlərdən imdad diləyirlər. Məntəqənin işçiləri müsəlləh əsgər kimi sayıq olur, dərhal ünvanı dəqiqləşdirib hadisə yerinə yollanır, həyatlarını itirmək təhlükəsində olan insanları xilas edirlər. Məlumdur ki, Təcili və Təxirəsalınmaz Tibbi Yardım Məntəqəsi bu sahədə reanimasion tədbirlər həyata keçirir. Məhz bunun nəticəsidir ki, bu xidmətin işi əhali tərəfindən rəğbətlə qarşılanır.

Müsahibimiz uzun müddət Yevlax Regional Təcili və Təxirəsalınmaz Tibbi Yardım Məntəqəsində böyük həkim kimi fədakarlıqla çalışan, gəncliyini bu humanist, nəcib peşəyə sərf edən Fazil İsmayılovdur. Fazil həkim haqqında qısaca məlumat vermək istərdik. O, Tibb İnstitutunu müvəffəqiyyətlə bitirdikdən sonra bir müddət Səudiyyə Ərəbistanının Qətif şəhərində tanınmış xəstəxanada işləmiş, sonra vətənə qayıtmış, elə həmin vaxtdan Yevlax Regional Təxirəsalınmaz Təcili Tibbi Yardım Məntəqəsinin böyük həkimi işləyir. Gecə-gündüz vətəndaşlara xidmət etməkdədir. İki il Naftalanda Mərkəzi Xəstəxananın baş həkimi işlədiyi dövrlərdə Naftalan şəhəri hər an, xain, bədnam ermənilər tərəfindən basqına məruz qaldığından kollektiv öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirmişdir.

F.İsmayılov qeyd edir ki, Prezident İlham Əliyevin bütün sahələrlə həmahəng, səhiyyə sahəsində aparılan yeni islahatlar, müəyyən etdiyi geniş proqramlar və möhtəşəm layihələr səhiyyə müəssisələrinin dünya standartlarına uyğun inşası, təmir və bərpası, onların ən müasir avadanlıqlarla təchiz olunması, vətəndaşların pulsuz dərman vasitələri və preparatlarla təminatı göz önündədir. Artıq hər bir Azərbaycan vətəndaşı öz həyatında bunu hiss edir. Ümumiyyətlə, Yevlax Regional Təcili Təxirəsalınmaz Tibbi Yardım Məntəqəsini bir sözlə bu cür xarakterizə etmək olar ki, hər gün eşitməyə adət etdiyimiz, əsasən də sükan arxasında əyləşmiş insanların öz ehtiyatsızlığı, sürət həddini aşması səbəbindən baş verən ağır yol-nəqliyyat hadisələri zamanı xəsarət almış insanların yardımına ilk gedən bu məntəqədə çalışan ağxalatlılardır. Onlar öz işlərini ləyaqətlə yerinə yetirir, intizar içərisində doğmalarından xoş soraq gözləyən insanları sevindirməkdən zövq alırlar. Məhz onların əməyi sayəsində ağır yol-nəqliyyat hadisələri zamanı müxtəlif dərəcəli xəsarət almış insanlar ölümün pəncəsindən xilas edilirlər. Onu xüsusilə qeyd etmək lazımdır ki, nəqliyyat vasitələrinin sayının çoxalması, avtomobil yollarında hərəkətin intensivliyinin artması nəticəsində son illərdə yol-nəqliyyat hadisələrinin, bu hadisələr zamanı ağır travmaların və ölüm hallarının sayı durmadan artır. Yollarda avtomobil qəzaları zamanı zərərçəkmişlərə tibbi yardımın vaxtında göstərilməsi, bununla da ölüm hallarının və travmadan sonrakı şikəstliyin azaldılması məqsədi ilə Nazirliyin Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının regional məntəqələri yaradılmışdır və hazırda onlar uğurla fəaliyyət göstərirlər. Yol hərəkəti iştirakçılarının, ilk növbədə sürücülərin tibbi-sanitar maariflənməsi, onların özünə və qarşılıqlı ilk tibbi yardım göstərmək qaydalarını mənimsəməsi məqsədilə "Özünə və qarşılıqlı ilk tibbi yardım qaydaları", "Avtomobillər üçün ilk tibbi yardım çantalarının tərkibi" və "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması məktəblərində tədris olunmaq üçün vəsait" hazırlanmışdır. Əhaliyə göstərilən təcili və təxirəsalınmaz tibbi yardımın keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədi ilə Respublika Prezidentinin Sərəncamı ilə ayrılmış vəsait hesabına müasir tibb avadanlıqları ilə təchiz olunmuş, "Mercedes" markalı avtomaşınlar alınmış və məntəqələrə paylanmışdır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Qazaxda heyvanlar arasında profilaktik peyvəndləmə tədbirləri

**Cari ilin ilk günlərindən başlayaraq ölkə ərazisində olduğu kimi, Qazax rayonunda da kənd təsərrüfatı heyvanları arasında "Epizootiya əleyhinə profilaktik və diaqnostika tədbirlər planı"na uyğun xüsusi təhlükəli xəstəliklərə qarşı profilaktik peyvəndləmə, diaqnostik müayinə, dezinfeksiya və digər tədbirlərə start verilib.**



Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti (DBX) bildirir ki, hazırda rayon ərazisində tədbirlər davam etdirilir və cari ilin müvafiq dövrü ərzində Qazax Rayon Baytarlıq İdarəsi tərəfindən 22867 baş iribuynuzlu, 1022 baş təkdırnaqlı heyvanda qarayara, 3194 baş sahibli itdə quduzluq, 159768 baş körpə ev quşlarında nyukasl xəstəliklərinə qarşı peyvəndləmə tədbirləri aparılıb.

Həmçinin həssas heyvanlar arasında bruselloz xəstəliyini aşkar etmək, xəstəliyin yayılmasının qarşısını almaq məqsədi ilə 1024 baş iribuynuzlu heyvandan qan nümunəsi alınaraq seroloji müayinə edilib.

Fevral ayından isə Qazax rayonunda heyvanlar arasında dabaq xəstəliyinə qarşı peyvəndləmə tədbirləri başlanılıb. Artıq 28371 baş iribuynuzlu heyvanda peyvəndləmə aparılıb. Ümumiyyətlə, rayonun təsərrüfatlarında heyvanlar arasında aparılan peyvəndləmə tədbirləri "soyuq zəncir" rejiminə riayət olunmaqla həyata keçirilir.

Ümumiyyətlə, Qazax Rayon Baytarlıq İdarəsi tərəfindən rayonun 23 kənd və 1 şəhərində vətəndaşların mülkiyyətində saxlanılan 31200 baş iribuynuzlu, 147000 baş xırdabuynuzlu, 1000 baş təkdırnaqlı heyvan, 5000 baş sahibli it və 285000 baş ev quşuna baytarlıq xidməti göstərilir. Heyvanlara göstərilən xidmətlər Qazax Rayon Baytarlıq İdarəsinin 13 sahə baytarlıq məntəqəsi vasitəsi ilə həyata keçirilir.

Qazax rayonunda bundan sonra isə ev quşları arasında nyukasl, iribuynuzlu heyvanlarda brusellyoz, leptospiroz, nodulyar der-



matit, xırdabuynuzlu heyvanlarda qarayara, dabaq, çiçək, leptospiroz xəstəliklərinə qarşı profilaktik peyvəndləmə tədbirləri aparılacaq.

Hazırda xüsusi təhlükəli xəstəliklərə görə respublikada epizootik vəziyyət sabitdir.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# DÜNYA BUGÜN

*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

## ❑ ABŞ TÜRKİYƏ İLƏ BAĞLI HƏDƏSİNİ REALLAŞDIRDI



Birləşmiş Ştatların Müdafiə Nazirliyi noyabr ayında Türkiyəyə göndərilməsi planlaşdırılan "F-35" tipli qırıcılar üçün hazırlıq tədbirlərinin, həmçinin təyyarələrlə bağlı materialların tədarükünün dayandırılması ilə bağlı qərar qəbul edib. Bu barədə "Sputnik" informasiya agentliyi "Anadolu"ya istinadən xəbər verib.

Pentaqonun rəsmi sözçüsü Çarls E.Sammers məlumatı təsdiqləyərək, Türkiyənin də iştirak etdiyi "F-35" proqramı ilə bağlı yeni bir addım atdıqlarını vurğulayıb.

Çarls E.Sammers deyib: "Birləşmiş Ştatlar Türkiyənin Rusiyadan "S-400" zenit-raket komplekslərinin alınmasının qəbuledilməz olduğunu açıq şəkildə bəyan edib. Buna görə də Müdafiə Nazirliyi "F-35"lərin tədarükü ilə bağlı lazım olan addımları atıb. Türkiyədə istehsal olunan hissələrin ikinci bir mənbədən alınması istiqamətində iş aparılır".

Türkiyə ilə "F-35" proqramının bu vəziyyətə düşməsinin təəssüf doğurduğunu bildirən Pentaqonun rəsmisi bildirib ki, "kritik texnologiyamızın istehsalında həyata keçirilən ortaq investisiyaları qorumaq üçün bu addımı atmaq məcburiyyətindəyik".

Eyni zamanda, Çarls E.Sammers qeyd edib: "Türkiyə ilə bununla bağlı dialoqumuz davam edir. Lakin Türkiyə "S-400" zenit raket komplekslərinin tədarükündən imtina etməyənə qədər Birləşmiş Ştatlar "F-35"lərin əməliyyat qabiliyyətinə dair tədarük fəaliyyətlərini dayandırır. Türkiyə "S-400"ləri alarsa, "F-35" proqramına daxil olmasını risk altına alacaq".

Xatırladaq ki, bir müddət öncə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiya ilə "S-500" zenit raket komplekslərinin alınmasına dair müqavilənin bağlanmasını istisna etməyib. Türkiyə lideri vurğulayıb ki, "S-400" zenit raketləri ilə bağlı müqavilə artıq bağlanıb və geri addım atıla bilməz.

## ❑ İSPANİYA XİN: ABŞ MÜTTƏFİQLƏRİNİ XƏBƏRDAR ETMƏLİDİR



ABŞ administrasiyası kollektiv təhlükəsizliyə təsir göstərən qərarlar barədə ictimai bəyanat verməzdən öncə öz müttəfiqlərinə xəbərdarlıq etməlidir. "Trend" agentliyinin məlumatına görə, bunu Vaşinqtondakı Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində çıxışı zamanı İspaniyanın xarici işlər naziri Jozep Borrel bəyan edib.

İspaniyanın XİN başçısı deyib: "ABŞ-ın bu cür qərarlar qəbul edərkən birtərəfli yanaşması bizim xoşumuza gəlmir. ABŞ-ın orta və kiçikmənzilli raketlərin ləğvi haqqında razılaşmadan çıxmaq üçün öz səbəbləri ola bilər. Lakin biz bu haqda əvvəlcədən bilmək istəyərdik".

Eyni zamanda, Jozep Borrel əlavə edib ki, bu sözləri İranla nüvə razılaşması və ya ordunun Suriyadan çıxarılması məsələsinə də aid etmək olar. "Hərdən səhər oyanırsan və öyrənirsən ki, ABŞ bizə və bizim təhlükəsizliyimizə zidd olan qərar qəbul edib", - deyə Jozep Borrel vurğulayıb.

## ❑ BÖYÜK BRİTANİYADA SAXTA XƏBƏRLƏRLƏ BAĞLI KOMİTƏ YARADILIR



Böyük Britaniya parlamentində uydurma və saxta xəbərləri araşdıracaq xüsusi komitə yaradılıb. "Report" agentliyinin "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, bu barədə İcmalar Palatasının Rəqəmsal Texnologiyalar, Mədəniyyət, Media və İdman Komitəsinin məruzəsində bildirilir.

"Uydurma xəbərlərin demokratiyaya yaratdığı təhlükələrə dair araşdırmalarımızın davamına ictimai marağın olduğuna əminik. Ona görə də uydurma xəbərlərlə bağlı yeni bir komitə yaradırıq. Komitə üçün məxsusi sayt da yaradacaq, habelə may ayında rəqəmli texnologiyalar, mədəniyyət, media və idman naziri Ceremi Raytın iştirakı ilə dinləmələr keçirəcəyik", - deyə sənəddə qeyd olunur.

Verilən xəbərə görə, parlamentdə ilk dinləmələr zamanı "Qondarma və saxta xəbərlər" adlı daha əvvəl dərc olunmuş məruzəyə hökumətin cavabını, həmçinin internetdəki zərərli əməllərlə bağlı yaxın vaxtlarda dərc olunacaq məruzəni müzakirə etmək nəzərdə tutulur. Dinləmələrdə Rəqəmsal Texnologiyalar, Mədəniyyət, Media və İdman Komitəsinin üzvləri iştirak edəcəklər.

## ❑ NETANYAHU SON BİR AYDA İKİNCİ DƏFƏ RUSİYAYA YENİDƏN SƏFƏR EDƏCƏK



İsrailin baş naziri Benyamin Netanyahu son bir ay ərzində ikinci dəfə Rusiyaya səfər edəcək. "Report" agentliyinin məlumatına görə, bu barədə İsrail baş nazirin administrasiyası xəbər yayıb.

Bildirilir ki, Benyamin Netanyahu aprelin 4-də Moskvada Rusiya prezidenti Vladimir Putinlə görüşəcək.

V.Putin və B.Netanyahu hərbi sahə üzrə təmaslar da daxil olmaqla ikitərəfli əməkdaşlığa dair aktual məsələləri, eləcə də Yaxın Şərq bölgəsindəki vəziyyəti müzakirə edəcəklər.

Eyni zamanda, İsrail hökumət başçısının administrasiyası belə təcili görüşün keçirilməsi və onun əvvəlcədən elan edilməməsinə aydınlıq gətirməyib.

Qeyd edək ki, Benyamin Netanyahu cari il fevral ayının 27-də Moskvada səfərdə olub və Vladimir Putinlə görüşüb.

Xatırladaq ki, Rusiya Suriyada Bəşər Əsəd rejiminə dəstək verməyə başlayandan, yəni 2015-ci ilin sentyabrından Benyamin Netanyahu ilə Vladimir Putin arasında 11 dəfə görüş keçirilib.

## ❑ VENESUELADA SİYASİ GƏRGİNLİK DAVAM EDİR



Tarixində ən ciddi siyasi böhrana səhnə olan Venesuelada hökumət və müxalifət etiraz nümayişlərini davam etdirirlər. "TRT" telekanalının məlumatına görə, aprelin 6-da müxalifət ilə yanaşı prezident Nikolas Maduro tərəfdaşları küçələrə axışaraq etiraz aksiyası keçirəcəklər.

Verilən xəbərə görə, Venesuela Konstitusiya Assambleyasının sədri və iqtidardakı Venesuela Birləşmiş Sosialist Partiyasının sədr müavini Diosdado Kabello paytaxt Karakasda mətbuata açıqlamasında aprelin 6-da ölkə ərazilərində imperializminə qarşı aksiya keçirəcəklərini açıqlayıb.

Eyni zamanda, Venesuela Birləşmiş Sosialist Partiyasının prezident Nikolas Maduronun atdığı addımlara dəstəyinin davam etdiyini ifadə edən Diosdado Kabello "imperializm qarşısında suverenliyin qorunması" üçün ölkənin bütün ərazilərində küçələrə axışacaqlarını qeyd edib.

Bununla yanaşı, paytaxt Karakasda və bir çox bölgədə elektrik enerjisinin kəsilməsinə etiraz məqsədilə təşkil edilən aksiyalara da toxunan Kabello, bəzi məhəllələrdə nümayişlərə qatılan aksiyaçıların çoxunun başqa bölgələrdən gəldiyinə diqqət çəkib.

Qeyd edək ki, özünü müvəqqəti dövlət başçısı elan edən Venesuela Parlamentinin sədri Xuan Quaydo da tərəfdaşlarını aprel ayının 6-da keçirilməsi planlaşdırılan aksiyalara qatılmağa çağırıb.

## ❑ CAMAL KAŞIKÇININ ÖVLADLARINA KOMPENSASİYA ÖDƏNİLİB



Səudiyyə Ərəbistanı jurnalist Camal Kaşıkçının övladlarına kompensasiya verib. "Report" agentliyinin məlumatına görə, bu barədə xəbəri "The Washington Post" qəzeti yayıb.

Bildirilir ki, jurnalistin iki oğlu və iki qızı ayrılıqda hər ay 50 min dollar müavinət alacaq. Bundan başqa, onların hər birinə 4 milyon dollarıdək qiyməti olan ev verilib.

Eyni zamanda, C.Kaşıkçının qətli ilə bağlı məhkəmə prosesi başa çatdıqdan sonra jurnalistin uşaqlarının hər biri əlavə olaraq 10 milyon dollar ala bilər.

Məlumata görə, qətldən sonra C.Kaşıkçının övladları Səudiyyə Ərəbistanını tənqid etməyiblər.

Bununla yanaşı, verilən xəbərə əsasən, krallığın məmurları kompensasiyanın uşaqların susmasına görə verilməsini təkzib ediblər.

Bununla yanaşı, "The Washington Post" ABŞ prezidenti Donald Trampı jurnalistin qətli ilə bağlı məsələyə qətiyyətsizlik göstərməkdə qınayıb.

Məlumat üçün qeyd edək ki, "The Washington Post" qəzetinin əməkdaşı, Səudiyyə Ərəbistanının vətəndaşı Camal Kaşıkçı 2018-ci il oktyabrın 2-də krallığın İstanbuldakı Baş Konsulluğunda qətlə yetirilib. İndiyədək onun meyiti tapılmayıb. ■

## "Ay-Ata" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının nəzərinə!

25 may 2019-cu il tarixdə saat 11:00-da Səhmdar Cəmiyyətinin ofis binasında (Bakı şəhəri, Nizami rayonu, Əlişir Nəvai küçəsi, 5) səhmdarların illik ümumi yığıncağı keçiriləcəkdir.

### Yığıncağın gündəliyi:

1. Səhmdar Cəmiyyətinin rəhbər orqanlarının və təftiş komissiyasının hesabatları haqqında;
2. Səhmdar Cəmiyyətinin illik hesabatlarının və mühasibat balanslarının təsdiq edilməsi haqqında;
3. Səhmdar Cəmiyyətinin mənfəət və zərər hesabatlarının təsdiq edilməsi haqqında;
4. Səhmdar Cəmiyyətinin mənfəət və zərərinin bölüşdürülməsi haqqında;
5. Səhmdarların ərizələri haqqında.

**Müşahidə Şurası.**

## Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası kitabların və kartoçkaların alınması üçün

## KOTİROVKA SORĞUSU ELAN EDİR

Zərfin açılma tarixi: 8 aprel 2019-cu il
Əlaqə nömrəsi: 050 679 36 70 Gülnaz xanım
Ünvan: Bakı şəh, Yasamal ray., H.Cavid prospekti 129

## Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Baş Dövlət Texniki Nəzarət Xidməti

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**
**Lot 1.** Kənd təsərrüfatı texnikalarının Dövlət qeydiyyat nömrə nişanının satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi 7A**
**Lot üzrə iştirak haqqı: 590 (beş yüz doxsan) manat**
**Əlaqələndirici şəxs: Sona Məmmədova**
**Telefon: 012-562-74-23**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
*Adı: Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Baş Dövlət Texniki Nəzarət Xidməti*
*VÖEN: 1700221271*
*Hesab: AZ69CTRE00000000000008527701*
*Adı: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T Bik.: CTREAZ22*
*Büdcə təsnifat kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7 (Tender iştirak haqqı)*
**İştirak haqqı heç bir halda qaytarılmır.**

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərfin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*6. İddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçirildiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları, işləri yerinə yetirmək üçün analoji işlərdə təcrübəsi;*
*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində iki nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət Satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 06.05.2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 15.05.2019-cu il saat 17:00-a qədər təqdim edilməlidir.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16.05.2019-cu il saat 15:00 tarixində açılacaqdır.
İddiaçılar səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## İveco markalı avtobuslar üçün ehtiyat hissələrinin satınalınması ilə əlaqədar "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyəti

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**
**Lot-1.** "BakuBus" MMC-nin balansında olan İveco markalı avtobuslar üçün ehtiyat hissələrinin satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "BakuBus" MMC-nin Bakı şəhəri, Suraxanı rayonu, Zığ-Hövsan yolu 1-ci km 1 yerləşən inzibati binası (Əlaqələndirici şəxs: Ramiq Zeynalov, telefon: 012 4041110) ünvanından ala bilərlər.

**İştirak haqqı (manat)**
**Lot 1 – 2000 manat**
*Hesab: AZ59AZRT38050019440004549002*
*VÖEN: 1701622931*
*Bank: AZƏR-TÜRK BANK ASC Mərkəz filialı*
*Kodu: 501361*
*VÖEN: 9900006111*
*M/H: AZ02NABZ01350100000000022944*
*S.W.İ.F.T AZRTAZ22*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 30.04.2019-cu il saat 11:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 15.05.2019-cu il saat 11:00 qədər, "BakuBus" MMC-nin inzibati binası Bakı şəhəri, Suraxanı rayonu, Zığ-Hövsan yolu 1-ci km 1 yerləşən ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16.05.2019-cu il saat 11:00 tarixində "BakuBus" MMC-nin inzibati binası Bakı şəhəri, Suraxanı rayonu, Zığ-Hövsan yolu 1-ci km 1 yerləşən ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

### Ağstafa Rayon Mərkəzi Xəstəxana

02 fevral və 12 fevral 2019-cu il tarixlərində "Respublika" qəzetində dərc olunan elanlara əsasən LOT-3 əsaslı təmir işləri üzrə açıq tender zərflərinin açılış müddəti 07 may 2019-cu il saat 15:00-dək uzadılır. Açıq tender prosedurunda iştirak etmək üçün iddiaçılar tender sənədlərini 06 may 2019-cu il saat 17:00-a kimi təqdim etməlidirlər.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Kənd Təsərrüfati Nazirliyi, "Dövlət Aqrar Ticarət Şirkəti" MMC tərəfindən 14 mart 2019-cu il tarixində Respublika üzrə arıçılığın inkişafı ilə bağlı bazar araşdırmasının satınalınması ilə əlaqədar elan olunmuş kotirovkalar sorğusu yetərsay təkliflərin təqdim olunmaması səbəbindən ləğv olunur.

**Tender Komissiyası.**

TƏKRAR

## Oğuz Rayon İcra Hakimiyyəti

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 2 lot üzrə keçirilir:**
**Lot 1:** Oğuz şəhərində abadlıq işləri
**Lot 2:** Mal-materialın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini hər lot üzrə ayrı-ayrılıqda möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Oğuz şəhəri, Heydər Əliyev küçəsi 89 küçəsi (Əlaqələndirici şəxs: Yunusov Elşən Oktay oğlu. Tel.: 024-20-5-23-19) ünvanından ala bilərlər.

**İştirak haqqı:**
**Lot 1 - 50 manat**
**Lot 2 - 30 manat**
*Oğuz YXO*
*VÖEN: 6600009111*
*H/H: AZ66AİİB32051019446800201168*
*Kapital bank Oğuz filialı*
*M/H: AZ37NABZ01350100000000001944*
*Kod: 200684*
*VÖEN 9900003611*
*SWİFT BİK: AİİBAZ 2 X*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*- Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*- Digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 19 aprel 2019-cu il saat 18:00-dək, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 02 may 2019-cu il saat 17:00-dək Oğuz şəhəri, Heydər Əliyev küçəsi-89 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 03 may 2019-cu il tarixində saat 15:00-da Oğuz şəhəri, Heydər Əliyev küçəsi-89 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısının Siyəzən şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 2019-cu il üçün

## AÇIQ TENDER ELAN EDİR

**Abadlıq və təmizlik işləri ilə bağlı malların və materialların alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 20 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Siyəzən şəhəri, Babək küçəsi 52 nömrəli ünvandan ala bilərlər.

**Əlaqələndirici şəxs: Əliyev Elxan Yaqub oğlu, tel: (023) 304-01-23**
*Təşkilat: Siyəzən RİHB-nın Siyəzən şəhər İƏD üzrə nümayəndəliyi*
*Adı: Siyəzən YXO*
*Hesab: AZ 39AİİB32051019445500201155*
*VOEN: 7100009511*
*BANK: Kapital Bankın Siyəzən rayon filialı*
*KOD: 200554*
*VOEN: 9900003611*
*M/H: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T. BİK AİİBAZ 2X*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
*- Tenderdə iştirak etmək üçün yazılı müraciət*
*- Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi*
*- Tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır)*
*- Tender təkliflərinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır)*
*- Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış.*
*- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti*
*- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı*
*- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru " Dövlət Satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 6 may 2019-cu il saat 16.00-a qədər, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş, ikiqat zərfdə 16 may 2019-cu il saat 16.00-a qədər Siyəzən RİHB-nın Siyəzən şəhər İƏD üzrə nümayəndəliyinə (ünvan: Siyəzən şəhəri, Babək küçəsi 52) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 17 may 2019-cu il tarixdə saat 11.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**


## "Qala Həyat Sığorta Şirkəti" ASC

27 mart 2019-cu il tarixdən etibarən

Bakı şəhəri, İzmir küçəsi 5A (faktiki ünvan)

ünvanında fəaliyyət göstərir.


AGBANK

## "AGBank" ASC-nin səhmdarlarının nəzərinə!

**Hörmətli səhmdarlar!**

**Nəzərinizə çatdırmaq istərdik ki, 07 iyun 2019-cu il tarixində saat 10.00-da bankın Cəlil Məmmədquluzadə küç. 102A ünvanında yerləşən binasında Səhmdarların Ümumi Yığıncağı keçiriləcək.**

**Yığıncağın gündəliyi:**

1. İdarə Heyətinin 2018-ci il üzrə hesabatı
2. Audit Komitəsinin hesabatı
3. Bankın maliyyə nəticələrinin təsdiq edilməsi
4. Bankın nizamnaməsinə dəyişikliklərin təsdiq edilməsi (nizamnamə kapitalının artması və "Banklar haqqında" AR qanununda edilmiş dəyişikliklər ilə əlaqədar)
5. Bankın nizamnaməsinin yeni redaksiyasının təsdiq edilməsi
6. Bankın İdarəetmə Orqanlarının əsasnamələrinin təsdiq edilməsi ("Banklar haqqında" AR qanununda edilmiş dəyişikliklər ilə əlaqədar).

## GƏNCƏ ŞƏHƏR SƏHİYYƏ İDARƏSİ

Mətbəə xidmətləri kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (022) 266-55-33 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 10.04.2019-cu il saat 17:00 tarixinədək qəbul olunur.

Zeynalov Zakir Zülfüəli oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən FM 008777 nömrəli Qeydiyyat Vəsiqəsi itdiyi üçün etibarsız sayılır. Ünvan: Bakı şəhəri, Binəqədi r-nu, Rəsulzadə qəsəbəsi, Sad-Park küçəsi ev 275/1.

Ağacanova Samirə Minbala qızının adına Qusar rayonu Zeyxur kəndində yerləşən torpaq sahəsinə verilmiş torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-181F kod 30100028) itdiyi üçün etibarsız sayılır.

Ağacanov Hörmət Canmirzə oğlunun adına Qusar rayonu Zeyxur kəndində yerləşən torpaq sahəsinə verilmiş torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-214F kod 30100028) itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin 3 saylı Xüsusi Təyinatlı Mənzil-Kommunal Təsərrüfatı Birliyi Bakı şəhəri, Suraxanı rayonu, Əmircan qəsəbəsi, M.Mustafayev küçəsi 4 ünvanındakı inzibati binasının təmiri üzrə iş və xidmətlərin satınalınması barədə kotirovka sorğusu elan edir. Təkliflərin təqdim olunma müddəti 12 aprel 2019-cu il saat 17:00-a qədərdir. Sorğuda iştirak etmək istəyənlər müvafiq sənədləri yuxarıda göstərilən ünvandan ala bilərlər.

Əsgərov Urfan Arif oğlunun adına Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən verilmiş 009555 və 010531 qeydiyyat nömrəli 2015-ci il tarixli, 011200 və 012137 nömrəli 2016-cı il tarixli şəhadətnamələr itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhəri Atatürk prospekti 197 ev 12 mənzil 43 ünvanda yaşayan Zeynalov Valeriy Aydınoviçə məxsus olan 2000-ci ildə verilən M/V 019509 nömrəli Müharibə Veteranı Vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 12 noyabr 1999-cu il tarixli 10 nömrəli qərarı ilə Siyavər kənd sakini Əliyev Vəli Əli oğluna məxsus həyətyanı torpaq sahəsinə verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 205 F; KOD 80221018) itdiyi üçün etibarsız sayılır.

TƏKRAR

## AZƏRBAYCAN RESPUBLİKASI ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ ÖZƏLLƏŞDİRMƏ PROSESİNƏ MƏSLƏHƏTÇİ XİDMƏTLƏRİNİN CƏLB OLUNMASI ÜZRƏ

## AÇIQ TENDER ELAN EDİR

1. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, özəlləşdirməyə açıq olan bir sıra dövlət müəssisələrinin (bundan sonra "müəssisələr") özəlləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması üçün məsləhətçi xidmətlərinin cəlb edilməsi üzrə açıq tender elan edir.

2. Cəlb olunacaq məsləhətçi tərəfindən aşağıdakı işlər görülməlidir:

2.1. Müəssisələrin maliyyə-iqtisadi və SWOT təhlilinin aparılması, satılan hissələrin beynəlxalq norma və standartlara uyğun qiymətləndirilməsi və biznesin potensial inkişaf perspektivləri əsasında onların canlandırılması üçün minimal investisiya ehtiyaclarının müəyyən edilməsi;

2.2. Potensial investorlara təqdim olunmaq üçün hər bir müəssisə üzrə məlumat memorandumunun (ölkə haqqında, qanunvericilik və s. barədə məlumatlar daxil edilməklə) hazırlanması;

2.3. Müəssisələrin özəlləşdirilməsinə yerli və xarici investorların cəlb edilməsi üçün potensial investorların geniş siyahısının ("long list") tərtib edilməsi;

2.4. Müəssisələrin satışı üzrə keçiriləcək investisiya müsabiqələrində iddiaçılar qarşısında qoyulacaq şərtlərlə bağlı (dövlət büdcəsinə ödəniş, investisiyaların minimal həcmi, təyinat profilinin saxlanılması və ya dəyişdirilməsi, yaradılmalı iş yerlərinin sayı və s.) tövsiyələrin verilməsi;

2.5. İnvestisiya müsabiqəsinin iştirakçılarının təkliflərinin qiymətləndirilməsi və qalibin seçilməsində müsabiqə komissiyalarının işinə köməklik göstərilməsi (zəruri hallarda);

2.6. İnvestisiya müsabiqəsinin qalibi ilə imzalanacaq alqı-satqı müqaviləsinin layihəsinin hazırlanması və onun müzakirəsi zamanı müsabiqə qalibi ilə danışıqlarda satıcının mövqeyinin dəstəklənməsi (zəruri hallarda);

2.8. Satınalan təşkilatın tələbi ilə və qarşılıqlı razılaşma əsasında digər işlərin görülməsi.

3. Açıq tenderdə müəssisələrin beynəlxalq norma və standartlar əsasında qiymətləndirilməsi və özəlləşdirmə sahəsində uğurlu təcrübəyə malik olan yerli və xarici məsləhətçi şirkətlər, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsiumlar) iştirak edə bilərlər.

4. Tender qalibinin xidmətlərinin haqqının ödənilməsi "müvəffəqiyyətə görə ödəniş" prinisipi əsasında ("success fee") həyata keçiriləcək və müəssisələrin özəlləşdirilməsi başa çatdıqdan və onların alıcıları ilə alqı-satqı müqavilələri imzalandıqdan sonra müvafiq alıcılar tərəfindən təmin olunacaqdır.

5. Tenderdə iştirak haqqı 500 (beş yüz) manat müəyyən edilmişdir. Tenderin Əsas Şərtlər Toplusunu almaq üçün iddiaçılar müvafiq məbləği satınalan təşkilatın aşağıda göstərilən bank hesabına köçürdükdən sonra Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (Əmlak Məsələləri Dövlət Komitəsi, otaq № 810, tel.: +99412 4902408, əlavə 191; faks: +99412 4903359) ünvanına müraciət etməlidirlər:

**Emitent:**
*Dövlət Xəzinədarlıq Agentliyi*
*Bank kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesabı: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T. bik: CTREAZ22*
**Alan:**
*Əmlak Məsələləri Dövlət Komitəsi*
*VÖEN: 2000015631*
*H/H: AZ84CTRE00000000000002647970*
*Büdcə səviyyəsinin kodu - 7*
*Büdcə təsnifatının kodu - 142340.*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

6. Əsas Şərtlər Toplusunu almaq üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
- Əsas Şərtlər Toplusunu almaq üçün ərizə;
- İştirak haqqının ödənilməsi barədə bank sənədi.

7. Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə qalmalıdır);
- tender təklifinin dəyərinin 2 (iki) faizindən az olmayan məbləğdə bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə qalmalıdır);
- vergilərə və digər məcburi ödənişlərə dair müvafiq dövlət qurumlarından alınmış arayışlar;
- iddiaçının maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;
- digər sənədlər.

Tenderdə iştirak etmək üçün təqdim edilməli digər sənədlərin siyahısı, onların tərtib olunmasına dair tələblər və təqdim olunma qaydası Əsas Şərtlər Toplusunda göstərilir.

8. Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 9 (doqquz) ay müddətinə icra olunmalıdır.

9. İddiaçılar öz təkliflərini Əsas Şərtlər Toplularında göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün sənədləri (maliyyə təklifi və təklifin bank təminatı istisna olmaqla) 15 aprel 2019-cu il, saat 17:00-dək, tender təklifini və təklifin bank təminatını isə möhürlənmiş qapalı zərflərdə 25 aprel 2019-cu il, saat 17:00-dək Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50 ünvanına (otaq № 810) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

10. Zərflərin açılması ilə bağlı Tender Komissiyasının iclası 26 aprel 2019-cu il, saat 15:00-da Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50 ünvanında, Əmlak Məsələləri Dövlət Komitəsinin inzibati binasında (otaq 310) keçiriləcəkdir.

Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığına uyğun açılacaq və təkliflər elan ediləcəkdir.

11. Tenderlə bağlı daha ətraflı məlumat almaq üçün iddiaçılar yuxarıda göstərilən ünvana müraciət edə bilərlər. Əlaqə telefonları: (+99412) 490-24-08 (əlavə 207 və 191), faks: (+99412) 490-33-59.

**Tender Komissiyası.**

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru və kollektivi tanınmış rejissor**
**RÖVŞƏN ALMURADLININ**
**vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.**

**ATU-nun Usaq Stomatologiyasının müdiri, professor Rəna Əliyeva və kafedranın kollektivi kafedranın əmakdaşı Fuad Həsənova, anası**
**AMALYA RAMAZAN qızı HƏSƏNOVANIN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**


Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.



● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Hümmət MUSAYEV

● Çapa imzalanmışdır
02.04.2019